# 22 İYUL MİLLİ MƏTBUAT GÜNÜDÜR

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

22 iyul 2022-ci il
№28 (8986)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Kadr hazırlığı çox vacib olan məsələdir

**Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqindən**

- Bildiyiniz kimi, biz xarici aparıcı ali məktəblərdə Azərbaycan gənclərinin dövlət xətti ilə təhsil alması proqramını da yenidən işə saldıq. Kadr hazırlığı, əlbəttə ki, çox vacib olan məsələdir, bu da var.
- Keçmiş məcburi köçkünlər arasında da ixtisaslar üzrə seçim aparılmalıdır. Məsələn, energetika, xidmət sektoru, sosial sahə, həkimlər, müəllimlər. İndi Ağdam şəhərində sürətlə məktəb tikilir. Orada kim dərs deyəcək? Ağdamdan olan, orada yaşamış müəllimlər və yaxud onların uşaqları, onların nəvələri. Bax, buna xüsusilə fikir vermək lazımdır.

## Keçmiş məcburi köçkünlər arasında da ixtisaslar üzrə seçim aparılmalıdır

## BU SAYIMIZDA

### Şəffaf, obyektiv və valideyn məmnuniyyəti



Artıq 18 iyul saat 11:00-dan etibarən 2022-2023-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu prosesinə start verilib. Uşaqların qəbulu "Məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi" *(www.bq.edu.az)* vasitəsilə həyata keçiriləcək. Belə ki, valideynlər sistem üzərində qeyd edilən tarix və saatdan etibarən elektron kabinet yaratmaq imkanı əldə ediblər.

səh.4

### Məktəb əsaslı psixososial dəstək proqramı



ARTİ tərəfindən uşaqlar və yeniyetmələrə psixososial dəstəyin göstərilməsinə dair müəllimlər üçün hazırlanmış "Əsas sosial-emosional bacarıqların inkişafı" adlı təlim proqramında stresin mənfi təsirini aradan qaldırmağın və stresi idarə etməyin mümkün yolları, sosial-emosional öyrənmə və psixoloji məmnunluğu dəyərləndirmənin əsasları, uşaqlarda şəxsiyyətdaxili və şəxsiyyətlərarası bacarıqların inkişaf etdirilməsi üçün tövsiyələr, dəstəkləyici sinif mühitinin yaradılması üçün strategiyalar kimi mövzular əhatə olunmuşdur.

səh.11

### "Texnologiya müəllimləri əvəz etməyəcək"



"Texnologiyadan istifadə müəllimlərin imkanlarını çox genişləndirə bilər. Amma hətta ən yaxşı texnologiya müəllimləri əvəz edə bilməz. Çünki təhsildə sosial münasibətlər lazımdır". Bu barədə OECD-nin Təhsil və səriştələr departamentinin direktoru Andreas Şleyxer Ankara təhsil platforması tərəfindən təşkil edilən, 400-dən çox türkiyəli müəllimin iştirak etdiyi videokonfransda bildirib.

səh.16

# Şagirdlərimiz medal sayını artırırlar




## Beynəlxalq Riyaziyyat Olimpiadasında

6-16 iyul tarixlərində Norveçin paytaxtı Oslo şəhərində 63-cü Beynəlxalq Riyaziyyat Olimpiadası təşkil edilib. Məktəblilərimiz olimpiadada uğurla çıxış edərək 1 gümüş, 4 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıb.

Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Toğrul Abbasov gümüş, Amin Cəfərzadə bürünc medal, həmin liseyin X sinif şagirdləri Fidan Qarayeva və Cəlil Hüseynov bürünc medal, Bakı şəhəri 2 nömrəli texniki-humanitar liseyin XI sinif şagirdi Elçin Musazadə bürünc medal, Bakı şəhəri 72 nömrəli tam orta məktəbin XI sinif şagirdi Cavad İsmayılzadə isə həvəsləndirici mükafat əldə edib.

Qeyd edək ki, 104 ölkənin iştirak etdiyi bu nüfuzlu olimpiadada Azərbaycan komandası 34-cü yerə layiq görülüb.

# “YÜKSƏLİŞ” müsabiqəsinin final mərhələsinin açılış mərasimi keçirilib









İyulun 16-da “Yüksəliş” müsabiqəsinin final mərhələsinin açılış mərasimi baş tutub.

Açılış mərasimində müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Təşkilat Komitəsinin üzvlərindən iqtisadiyyat naziri Mikayıl Cabbarov və təhsil naziri Emin Əmrullayev iştirak edib.

Gənclər və idman nazirinin müavini, İşçi Qrupunun rəhbəri Fərhad Hacıyevin çıxışı ilə açıq elan olunan tədbir Təşkilat Komitəsi üzvlərinin və ötən ilin “Yüksəliş” müsabiqəsi qaliblərindən Orxan Quliyevin nitqi ilə davam edib.

İdarəçi rəhbərlər çıxışlarında “Yüksəliş” müsabiqəsinin yeni nəsil idarəçilərin aşkara çıxarılması və formalaşmasında oynadığı əhəmiyyətli rolu vurğulayıb, müasir idarəçiliyin tələblərinə və rəqabətli insan kapitalının önəminə diqqət çəkiblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov öz çıxışında idarəçiliyin əsas şərtlərindən birinin məsuliyyəti dərk etmək olduğunu və müasir dövrün idarəçisi olaraq individuallıqdan komanda işinə keçməyin əhəmiyyətini qeyd edib. Mikayıl Cabbarov bildirib ki, idarəçiyə etimad, etibar və inam önəmlidir.

Təhsil naziri Emin Əmrullayev çıxışında təhsildə kompetensiyaların hesablanmasının əhəmiyyətindən danışaraq bir sıra hallarda data əsaslı qərar verməklə yanaşı reallığa və kontekstə uyğun qərar verilməsi gərəkliyini bildirib. Nazir vurğulayıb ki, idarəçinin əsas missiyalarından biri reallığı dəyişməkdir və əsl idarəçi bu kimi çətin vəziyyətlərdə necə qərar qəbul edəcəyinə əsasən müəyyən olunur.

Daha sonra birinci “Yüksəliş” müsabiqəsi qaliblərindən Orxan Quliyev potensial idarəçi şəxslərin, intellektual şəxslərin bir araya toplanması, onların şəbəkələşməsi, bir-birlərinin peşəkar fəaliyyəti ilə yaxından tanış olmasının “Yüksəliş” müsabiqəsinin iştirakçılara qatdığı ən böyük dəyər olduğunu vurğulayıb.

Gənclər və idman nazirinin müavini, İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev sonda “Yüksəliş” müsabiqəsi finalçılarına səslənərək istedadlı kadrların seçilməsi, inkişaf etdirilməsi üzrə layihənin keçirilməsində yaxından iştirak etdikləri üçün məmnunluq və qürur hissi duyduğunu bildirib və iştirakçılara uğurlar arzulayıb.

Qeyd edək ki, finalda müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 116 nəfər iştirakçı mübarizə aparır.

Final mərhələsi 3 gün davam edəcək və müsabiqə 17 iyulda yekunlaşacaq. Bu mərhələni uğurla keçən iştirakçıları 1 il ərzində idarəçi rəhbərlərdən - iri şirkətlərin topmenecerlərindən və dövlət qurumlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20.000 AZN dəyərində pul mükafatı gözləyir.

“Yüksəliş” müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

## A.Ş.Süleymanovun Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Akif Şamil oğlu Süleymanov Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 iyun 2022-ci il*

## Təhsil nazirinin Lənkəran şəhərindəki vətəndaş qəbulunun vaxtı dəyişdirilib

Təhsil naziri Emin Əmrullayevin 22 iyul 2022-ci il tarixində Lənkəran şəhərində keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib. Vətəndaş qəbulu iyulun 26-da keçiriləcək.

Qəbulda Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad və Yardımlı rayonlarında qeydiyyatda olan sakinlər, eləcə də həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlərin də iştirakı nəzərdə tutulub.

Qeyd olunan rayonların sakinləri 18 iyul 2022-ci il (saat 18:00-dək) tarixinədək Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron *(https://edu.gov.az/az/contact_us)* və rəsmi “Whatsapp” xidmətinə (051 206-78-48) müraciət etməklə qəbula yazıla bilərlər.

Qeyd edək ki, qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edəcək. Müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan şəxslər qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

## Ötən tədris ilində 20 mindən çox şagirdin summativ qiymətləndirilməsi elektron qaydada keçirilib

2021-2022-ci tədris ilində 500-ə yaxın ümumi təhsil müəssisəsində summativ qiymətləndirmə rəqəmsal formada təşkil olunub.

İlkin mərhələdə ötən tədris ilinin I yarımilində seçilmiş 40 ümumi təhsil müəssisəsinin V, VI, VII və VIII siniflərində tədris dili, riyaziyyat və xarici dil fənləri olmaqla böyük summativ qiymətləndirmə rəqəmsal formada keçirilib. I yarımildə qiymətləndirmə prosesində seçilmiş müəssisələr üzrə 16 489 şagird iştirak edib.

2021-2022-ci tədris ilinin ikinci yarımili ərzində seçilmiş 40 ümumi təhsil müəssisəsinə kiçik summativ qiymətləndirmələrin könüllü əsasda rəqəmsal formada təşkili üçün göstəriş verilib, bundan sonra ölkə üzrə bütün ümumi təhsil müəssisələrinə summativ qiymətləndirmələrin texniki təminat və internet olduğu təqdirdə rəqəmsal formada keçirilməsinə dair təlimati məktub göndərilib. Nəticədə II yarımildə 500-ə yaxın ümumi təhsil müəssisəsinin 20 000-dən çox şagirdi rəqəmsal summativ qiymətləndirmədə iştirak edib.

Rəqəmsal qiymətləndirmənin ölkə üzrə təşkilinə dair ümumi vəziyyət qiymətləndirilib və aparılan təhlillər göstərib ki, qiymətləndirmə prosesinin rəqəmsal təşkil edilməsi çevik hesabatlılığın təmin olunması üçün əlverişli şərait yaradıb.

Qeyd edək ki, rəqəmsal böyük summativ qiymətləndirmə təhsil müəssisələrində təşkil olunan summativ qiymətləndirmənin elektron formada (kompüter avadanlıqlarından və müvafiq proqram təminatından istifadə edərək) məktəb binasında təşkil edilməsidir. Rəqəmsal qiymətləndirmə “Virtual məktəb” platforması üzərindən aparılır. Kağız üzərində keçirilən qiymətləndirmə vəsaitindən yalnız bir dəfə istifadə oluna bildiyi halda, rəqəmsal qiymətləndirmənin tətbiqi zamanı material və resurslardan təkrar istifadə oluna bilir. Bu isə öz növbəsində qiymətləndirmə vəsaitlərinin hazırlanması üçün vaxta qənaət etmiş olur.

Eyni zamanda rəqəmsal qiymətləndirmə prosesi virtual sinifdə təyin olunmuş vaxt ərzində reallaşdırılır. Bu üstünlük qiymətləndirmə vaxtının optimallaşdırılmasına zəmin yaradır. Tərtib olunan suallar və qiymətləndirmə prosesi məktəb rəhbərliyi və müvafiq fənn müəllimləri tərəfindən təşkil olunur, şagirdlər nəticələr barədə yerində məlumatlar əldə edir.

Növbəti tədris ilindən rəqəmsal qaydada keçirilən qiymətləndirmənin əhatə dairəsi genişləndiriləcək.



# Təhsil naziri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfərdədir





İyulun 19-da təhsil naziri Emin Əmrullayev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfəri çərçivəsində Böyük Britaniyanın ən böyük biznes şəbəkəsi olan "British Expertise" təşkilatında təhsillə bağlı ən müasir texnoloji xidmətlər təqdim edən təhsil qurumlarının nümayəndələri ilə görüşüb.

Görüş zamanı təhsil naziri hazırda ölkəmizdə təhsil sistemində həyata keçirilən innovasiya və texnologiya üzrə islahatlarla bağlı məlumat verib, gələcəkdə bu islahatların daha da genişlənməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin 44 günlük Vətən müharibəsindən, ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri və xüsusilə də yaranmış imkanlar müzakirə edilib.

İyulun 20-də isə Emin Əmrullayev Lordlar Palatasında Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun təşkilatçılığı əsasında dünyanın və Böyük Britaniyanın Vorvik (University of Warwick), Nyukasl (Newcastle University), Durham (Durham University), Lester (University of Leicester) və s. kimi nüfuzlu universitetlərinin rəhbərləri və nümayəndələri ilə görüşüb.

Görüş zamanı nazir hazırda ölkəmizdə ali təhsil sahəsində həyata keçirilən layihə və təşəbbüslər, o cümlədən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2026-cı illər üçün Dövlət Proqramı" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" barədə məlumat verib.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

# Nazir çalışmanın yaş həddinə çatmış direktorlarla görüşüb



İyulun 15-də təhsil naziri Emin Əmrullayev çalışmanın yaş həddinə çatmış "Zəngi" liseyinin və "Elitar" gimnaziyanın direktorları ilə görüşüb.

Görüşdə "Zəngi" liseyinin direktoru Almaz Əsgərova və "Elitar" gimnaziyanın direktoru Sevda Quliyeva iştirak edib.

Təhsil naziri Emin Əmrullayev hər iki ümumi təhsil müəssisəsinin direktoruna 40 illik pedaqoji fəaliyyətləri dövründə təhsilin inkişafına verdikləri töhfəyə, gənc nəslin təlim-tərbiyəsi sahəsində uzunmüddətli səmərəli xidmətlərinə görə təşəkkür edib.

Direktorlar da öz növbəsində onların əməyinə verilən dəyərə görə minnətdarlıqlarını ifadə ediblər.

Sonda direktorlar Təhsil Nazirliyinin "Təşəkkürnaməsi" ilə təltif olunublar.

# Bakı Mühəndislik Universitetində Himayəçilər Şurasının iclası keçirilib

Bakı Mühəndislik Universitetində (BMU) Himayəçilər Şurasının növbəti iclası keçirilib.



Şuranın sədri, təhsil nazirinin müavini İdris İsayev təhsilin daha da inkişafının ölkəmizin rəhbərliyi tərəfindən daim diqqətdə saxlanıldığını, bu sahənin bütün pillələrinə, o cümlədən ali təhsil sisteminə dövlət səviyyəsində hərtərəfli qayğı göstərildiyini və dəstək verildiyini bildirib. Bu istiqamətdə dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirən amillərdən danışan nazir müavini ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı görülən tədbirləri nəzərə çatdırıb. İdris İsayev ali təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası baxımından Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sənədləri, bu sırada "2019—2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətini xüsusi vurğulayıb.

Çıxışında hesabat dövründə BMU-nun strateji inkişaf proqramına uyğun fəaliyyətinə toxunan Şura sədri, həmçinin qarşıda duran əsas vəzifələrə diqqət çəkib. Nazir müavini müasir əmək bazarının tələbləri əsasında yeni ixtisasların yaranması, təhsil prioritetlərinin düzgün müəyyənləşdirilməsi, məzunların məşğulluğunun daha effektiv şəkildə təmin olunması, ali təhsildə keyfiyyətin artırılması, onun əhatəliliyinin genişləndirilməsi və nəticəyönümlü işin ortaya qoyulması kimi önəmli məsələlərlə bağlı öz fikirlərini bildirib.

Sonra BMU-nun rektoru, professor Havar Məmmədov ali təhsil müəssisəsinin 2021-ci il üzrə fəaliyyəti, eyni zamanda strateji inkişaf proqramının icrası haqqında geniş hesabatla çıxış edib. Rektor ötən müddətdə də şəffaflıq və obyektivlik prinsipləri əsasında fəaliyyət göstərən universitetdə tədrisin təşkilinin müasir texnologiyalar və metodlar əsasında qurulduğunu, bütün sahələr üzrə elektron məlumat sisteminin tətbiq edildiyini, təhsil müəssisəsinin maddi-texniki bazasının daha da gücləndirilməsi yönündə işlərin davam etdirildiyini söyləyib.

Hazırda universitetdə təhsil alan tələbələrlə və tədrislə bağlı müvafiq statistik məlumatları nəzərə çatdıran H.Məmmədov tədrisin təşkili, innovasiyalar və elmi-tədqiqat sahəsində görülən işləri təqdim edib. Bununla yanaşı, universitetin professor-müəllim heyətinin elmi məqalələrinin "Thomson Reuters", "Web of Science", "Scopus" və s. kimi elmi platformalarda nəşr olunması sahəsində qazanılan nailiyyətləri vurğulayıb.

Universitetin innovativ fəaliyyətində tələbələrin xüsusi fəallıqla seçildiyini, ali təhsil ocağında 50-yə yaxın tələbə klubunun fəaliyyətdə olduğunu deyən H.Məmmədov BMU-nun 7 tələbə komandasının öz layihələri ilə dünyanın ən böyük aviasiya, kosmos və texnologiya festivalı olan "TEKNOFEST — 2022" Aerokosmik və Texnologiya Festivalında keçirilən müsabiqədə finala yüksəldiyini, onlardan "RED" komandasının "Robotexnika" kateqoriyası üzrə birinci yeri tutduğunu xatırladıb.

Rektor BMU-nun beynəlxalq əlaqələri, tərbiyə işləri və digər sahələr üzrə də həyata keçirilən tədbirləri sadalayıb. Artıq iki ildir ki, BMU ilə Cənubi Koreyanın İnha Universiteti arasında bakalavriat səviyyəsində 4 ixtisas üzrə ikili diplom proqramının həyata keçirildiyini önə çəkən H.Məmmədov dövlət vəsaiti hesabına reallaşan proqramın Azərbaycanın gənc mühəndis kadrlarla təmin olunması üçün böyük imkanlar açdığını bildirib. Rektor hazırda proqram çərçivəsində BMU-nun 7 nəfərdən ibarət professor-müəllim heyətinin Koreyada təlimlərə cəlb edildiyini, habelə BMU-da tədrisi koreyalı professor-müəllim heyəti tərəfindən həyata keçirilən "Yay məktəbi"nin başladığını fikirlərinə əlavə edib.

Daha sonra iclasda BMU-nun Himayəçilər Şurasının 2022-ci ilin ikinci yarımili üçün iş planı təsdiq olunub. Bununla yanaşı, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ikili diplom proqramı ilə bağlı hesabat, BMU-nun 2021-ci il büdcəsinin icrası, 2022-ci il proqnozu və maliyyə fəaliyyəti barədə hesabat, eləcə də Audit Komitəsinin hesabatı dinlənilib. Gündəliyə uyğun olaraq, BMU-nun yeni Nizamnaməsindən irəli gələn tələblər də nəzərdən keçirilib və universitetdə daxili audit bölməsinin yaradılması barədə qərar qəbul edilib.

Şuranın üzvləri - Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov, səhiyyə nazirinin səhiyyənin rəqəmsallaşdırılması üzrə müşaviri Rüfət Hacıəliəyov və başqaları gündəlikdə yer alan məsələlərlə bağlı rəy və təkliflərini bildiriblər.

Strateji İnkişaf Proqramından irəli gələn vəzifələrin, maliyyə məsələlərində effektivliyin artırılması imkanlarının ətraflı müzakirə edildiyi iclasda gələcək fəaliyyət üzrə müvafiq tapşırıqlar verilib, gündəlikdə yer alan məsələlər səsə qoyularaq təsdiq edilib.

# Təhsil nazirinin müavini Almetyevsk Dövlət Neft İnstitutunun rektoru ilə görüşüb



İyulun 18-də təhsil nazirinin müavini Firudin Qurbanov Almetyevsk Dövlət Neft İnstitutunun rektoru Aleksandr Dyakonovla görüşüb.

Görüşdə birgə təhsil layihələri, o cümlədən ikili diplom proqramları ilə bağlı məsələlər müzakirə edilib. Müzakirələrdə xüsusi olaraq elmi araşdırmalardan danışılıb, hər iki tərəf elmi tədqiqatları məzunların qlobal elm və təhsil məkanında rəqabət qabiliyyətini təmin edən uğurlu və müasir təhsilin açarı kimi dəyərləndirib.

Almetyevsk Dövlət Neft İnstitutunun rektoru səfər etdiyi Azərbaycanın ali təhsil ocaqlarında elmi tədqiqatların, təhsilin keyfiyyətinin və infrastrukturunun inkişafının yüksək səviyyədə olduğunu qeyd edib.

# Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi İcraiyyə Komitəsinin növbəti iclası

Azərbaycan Tələbə Futbol Federasiyası (ATFF) İctimai Birliyi İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.

Təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyasının prezidenti Firudin Qurbanov tələbə futbolunun 2021-2022-ci il mövsümünün yekunlarına dair çıxış edib, gündəlikdə duran əsas məsələlər barədə fikirlərini bildirib. Firudin Qurbanov Federasiyanın 2021-2025-ci il İnkişaf Konsepsiyasının müddəaları ilə bağlı zəruri məsələlərə toxunub, tələbə futbolunda görülmüş işləri və həyata keçirilməsi vacib olan tədbirləri qeyd edib.

ATFF İctimai Birliyinin baş katibi Lətif Novruzov ötən il "Zəfər Günü"nə, eləcə də bu ilin aprel-may aylarında ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş turnirlərin yekunları barədə geniş məlumat verib.

Daha sonra İcraiyyə Komitəsinin üzvləri gündəlikdə duran cari məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar. Müzakirələr zamanı növbəti illər üçün tələbələr arasında keçiriləcək beynəlxalq yarışlara ali təhsil müəssisələrinin tələbələrindən ibarət yığma komandaların iştirakı təklif olunub, ali təhsil müəssisələrinin futbol klubları rəhbərləri üçün yüksək səriştəyə malik mütəxəssislərin mütəmadi olaraq müxtəlif seminarlar keçirməsi diqqətə çatdırılıb.

Sonda 2022-ci ildə də "Zəfər Kuboku" turniri, 2023-cü ildə isə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş turnirin keçirilməsi üçün hazırlıq işlərinə başlanılması vurğulanıb.

# Regional İnkişaf İctimai Birliyi ilə görüş

Təhsil nazirinin müavini Firudin Qurbanov Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşüb.

Görüşdə qlobal təhsil vasitəsilə inklüziyanın və inteqrasiyanın təşviqi məsələləri müzakirə edilib.

Firudin Qurbanov inklüziya mədəniyyətinin bərqərar olunmasının əhəmiyyəti barədə danışıb, Azərbaycan təhsil sistemində bu istiqamətdə görülmüş işlərə toxunub.

Görüşdə ölkədə sağlamlıq imkanları məhdud şəxslərin inklüziv təhsilinin təşkili istiqamətində aparılan islahatlar və qanunvericilik bazasının təkmilləşdirilməsi barədə müzakirələr aparılıb.

Regional İnkişaf İctimai Birliyinin nümayəndələri inklüziv təhsilin genişləndirilməsində təşkilatın həyata keçirdiyi layihələr barədə görüş iştirakçılarına məlumat veriblər. Həmçinin Təhsil Nazirliyi ilə bu sahədə gələcək əməkdaşlıq istiqamətlərinə dair söhbət aparılıb, fəaliyyətlərin ümumi əlaqələndirilməsi təmin etməklə səmərəliliyin artırılması üçün İşçi qrupun yaradılması qərara alınıb.

# Şəffaf, obyektiv və valideyn məmnuniyyəti

## Məktəbəqədər təhsil müəssisələrinə qəbul elektronlaşdırılıb



Ölkə başçısı İlham Əliyevin "Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" imzaladığı müvafiq sərəncamı təhsilin bünövrəsi hesab edilən məktəbəqədər təhsilin inkişafı, keyfiyyətinin artırılması istiqamətində artıq mühüm addımların atılmasının bir daha vacibliyini önə çəkdi.

Sərəncama əsasən, dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verildi.

Bununla bağlı Təhsil Nazirliyi tərəfindən artıq konkret addımlar atılmağa başlanılıb. Görülən ilk işlərdən biri məhz məktəbəqədər təhsil müəssisələrinə qəbulun elektronlaşdırılmasıdır ki, bu da, həmin prosesin şəffaf və obyektiv keçirilməsinə imkan verəcək.

Artıq 18 iyul saat 11:00-dan etibarən 2022-2023-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu prosesinə start verilib.

Uşaqların qəbulu "Məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi" *(www.bq.edu.az)* vasitəsilə həyata keçiriləcək. Belə ki, valideynlər sistem üzərində qeyd edilən tarix və saatdan etibarən elektron kabinet yaratmaq imkanı əldə ediblər.

İyulun 22-dən Mərkəzi Aran Regional Təhsil İdarəsinin tabeliyində olan şəhər və rayonlar üzrə (Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab), iyulun 26-dan Bakı şəhəri, avqustun 2-dən isə ölkə üzrə bütün valideynlər uşaqların məktəbəqədər təhsil müəssisələrinə qəbulu ilə bağlı növbəyə yazıla biləcəklər.

2022-2023-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu ilə bağlı bu və digər məlumatları Təhsil Nazirliyinin Məktəbəqədər təhsilin təşkili və idarə olunması sektorunun müdiri İlahə Rəsulova iyulun 18-də Təhsil Nazirliyində keçirilən brifinqdə daha ətraflı açıqlayıb.

### Sənəd qəbulu *bq.edu.az* portalı vasitəsilə həyata keçirilir

Bildirilib ki, məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu *bq.edu.az* portalı vasitəsilə həyata keçirilir.

Məktəbəqədər təhsil müəssisələrinə 1 yaşdan 6 yaşadək uşaqlar qəbul edilirlər. Yaşayış ərazisindəki məktəbəqədər təhsil müəssisəsində uşağın yaşına uyğun qrup və yer olmadığı halda uşaqlar digər məktəbəqədər təhsil müəssisəsinə qəbul edilə bilər.

Valideyn maksimum 3 məktəbəqədər təhsil müəssisəsini seçərək növbəyə yazıla bilər. Növbələrdən hər hansı biri sistem tərəfindən təsdiqlənərək sorğuya çevrilərsə uşağın digər məktəbəqədər təhsil müəssisələrinə olan növbələri silinəcəkdir.

Valideyn (qanuni nümayəndə) tərəfindən yerləşdirilmiş növbələr 1 ay müddətində boş yerlər olduğu halda sorğuya çevriləcək. Valideyn (qanuni nümayəndə) sorğusu qəbul edildikdən sonra 15 gün ərzində sənədləri müvafiq müəssisəyə təqdim etməlidir, əks təqdirdə sorğu sistem tərəfindən silinəcək və növbəli şəkildə başqa uşağın qəbulu aparılacaq.

### Elektron sistemdən istifadə üçün heç bir ödəniş tələb olunmur

Qeyd olunub ki, məktəbəqədər təhsil müəssisəsinə qəbul üçün elektron ərizəsi qeydiyyata alınan valideyn (qanuni nümayəndə) şəxsi kabinetdən çap olunmuş elektron ərizəsini, şəxsiyyətini təsdiq edən sənədin surəti, uşağın mübadilə vərəqəsini, onun şəxsiyyət vəsiqəsinin surətini, 3x4 sm ölçüdə 2 ədəd fotoşəklini, sağlamlığının vəziyyəti barədə tibbi arayışı övladının qəbul olunduğu bağçaya təqdim edə bilər.

Elektron sənəd qəbulu sistemindən istifadə üçün ödəniş tələb olunmur. Məktəbəqədər təhsil müəssisələrində təhsil icbari xarakter daşımır. Məktəbəqədər təhsil müəssisələrində təhsil dövlət hesabına həyata keçirilir. Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilir.

### Uşaqların qəbulu zamanı nəzərə alınan prioritetlər

Media nümayəndələrinin diqqətinə o da çatdırıldı ki, məktəbəqədər təhsil müəssisələrində onlayn qeydiyyat zamanı şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının və əlillərinin övladları, tək işləyən valideynlərin övladları, I və II qrup əlillərin övladları, hərbi xidmətdə olan valideynlərin övladları, təhsilalan anaların övladları, çoxuşaqlı ailələrdən və qəyyumluqda olan uşaqların qəbulu üzrə üstünlük hüquqları təmin olunur.

### Boş yerlərə qəbul ilboyu davam edəcək

Uşaqların məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılması prosesi iyulun 22-dən başlanılır və 14 sentyabr tarixinədək davam edəcək .

Onu da qeyd edək ki, elektron qəbul sistemi 15-21 sentyabr 2022-ci il tarixlərində qrupların komplektləşdirilməsi ilə əlaqədar müvəqqəti dayandırılacaqdır. Qrupların komplektləşdirilməsi prosesi bitdikdən sonra elektron qəbul sistemi yenidən aktiv olacaq və ilboyu boş yerlərə qəbul aparılacaqdır.

### Əyləncə, istirahət, eyni zamanda təhsilə hazırlanma müəssisəsi

Təhsilin bünövrəsi və qeyd etdiyimiz kimi ilkin pilləsi hesab olunan uşaq bağçaları kiçikyaşlı uşaqların əyləncə və istirahəti, məktəbəqədər yaşda olan uşaqların isə təlim və tərbiyəsi ilə məşğul olan bir müəssisədir.

Ümid edirik ki, çox qısa bir zamanda məktəbəqədər təhsildə keyfiyyət dəyişikliklərinə və inkişafa nail olunacaq və uşaqların əyləncəsini, istirahətini, eyni zamanda təhsilə hazırlanmasını özündə birləşdirən nümunəvi bağçalarımızın sayı artacaq.

**Samirə KƏRİMOVA**

# MÜƏLLİM olmaq istəyirəm...





## Müəllimlərin işə qəbulu üzrə imtahan prosesi izlənilib

İyulun 15-də müəllimlərin işə qəbulu üzrə test imtahanlarının izlənilməsi məqsədilə Azərbaycan Texniki Universitetinin idman kompleksinə infotur təşkil edilib.

İnfoturda təhsil nazirinin müavini Muxtar Məmmədov, millət vəkilləri və media nümayəndələri iştirak ediblər. Qonaqlar imtahanın gedişini yaxından izləyib, bu prosesIə bağlı fikir mübadiləsi aparıblar.

Təhsil nazirinin müavini Muxtar Məmmədov infotur iştirakçılarına cari ildə müəllimlərin işə qəbulu prosesində tətbiq edilən yeniliklər barədə məlumat verib. Nazir müavini bildirib ki, müəllim tədris etdiyi fənn üzrə yaxşı biliyə malik olmalı və biliyini şagirdlərə düzgün çatdırmağı bacarmalıdır. Test imtahanı suallarının canlı yayımda təhlilinə toxunan nazir müavini bu prosesin əhəmiyyətini diqqətə çatdırıb.

Daha sonra təhsilverənlərin sertifikasiya prosesindən danışan Muxtar Məmmədov müəllimlərin bu yöndə məlumatlandırılmasının vacibliyini vurğulayıb, bu prosesin əsas məqsədinin müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsindən ibarət olduğunu deyib.

İnfoturda iştirak edən millət vəkilləri də öz növbəsində təhsil sahəsində aparılan yeniliklərdən, cəmiyyətdə müəllim peşəsinin nüfuzundan danışıblar. Həmçinin təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindən söz açılıb, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlərə toxunulub.

***

İyulun 19-da müəllimlərin işə qəbulu üzrə imtahan prosesinin izlənilməsi məqsədilə Sumqayıt şəhəri 12 nömrəli tam orta məktəbə də infotur təşkil edilib.

İnfoturda Təhsil Nazirliyinin əməkdaşları, milllət vəkilləri, ali məktəblərin rektorları və media qurumlarının rəhbərləri iştirak edib.

İnfotur iştirakçılarına müəllimlərin işə qəbulu prosesində bu il tətbiq olunan yeniliklər barədə məlumat verilib, Təhsil İnstitutunun müəllim olmaq istəyən namizədlərə dəstək göstərmək, onların hazırlığına istiqamət vermək üçün gördüyü işlər diqqətə çatdırılıb. Həmçinin işə qəbul prosesi ilə bağlı vebinar və seminarların təşkil olunduğu bildirilib.

Qeyd olunub ki, müəllimlərin işə qəbulu müsabiqəsinin test mərhələsində namizədlərə təqdim edilmiş ixtisas üzrə suallar və onların cavabları hər gün Təhsil TV-nin canlı yayımında təhlil olunur.

İnfotur iştirakçıları imtahan prosesini izləyib və bu proseslə bağlı fikir mübadiləsi aparıblar.

# Təhsilverənlərin peşəkar inkişafı naminə





## Bölgələrdə sertifikatlaşdırma prosesinə dair məlumatverici görüşlər keçirilib

İyulun 15-də Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrində çalışan direktorlar, direktor müavinləri və ibtidai sinif müəllimləri ilə təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı Abşeron və Sumqayıtda görüşlər keçirilib.

Görüşlərdə sertifikatlaşdırmanın mahiyyəti, məqsədi, test imtahanı və müsahibə mərhələlərinin təşkili, sertifikatlaşdırmanın nəticələrinin təhsilin keyfiyyətinə müsbət təsirindən danışılıb.

Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva və müdir müavini Ramin Abbasov sertifikasiya prosesinin əhəmiyyətini, təhsilverənlər üçün özünüinkişaf aləti olmasını, nəticələrin təhsil sisteminə böyük töhfə verəcəyini bildiriblər.

Çıxış edən Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin əməkdaşı, Təhsilverənlərin sertifikatlaşdırılması şurasının katibi Tükəzban Quliyeva sertifikatlaşdırmanın mahiyyəti, mərhələləri, təhsilverənlərdən gözləntilərlə bağlı təqdimatla çıxış edib, serifikatlaşdırmanın nəticələrinin təhsilverənlərin karyera inkişafında, gələcəkdə həyata keçiriləcək əməyin stimullaşdırılması tədbirlərində nəzərə alınacağını diqqətə çatdırıb.

Görüşlərdə iştirak edən Təhsil İnstitutunun ibtidai təhsil üzrə təlimçisi Vəfa Məmmədova da öz növbəsində sertifikatlaşdırmanın mərhələləri, məzmunu ilə bağlı məsələlər barədə fikirlərini bölüşüb, çərçivə sənədi və ibtidai təhsil üzrə nümunə test tapşırıqlarını izah edib.

Sonda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***

İyulun 18-də Quba və Qusar rayonlarında direktor, direktor müavinləri və ibtidai sinif müəllimləri ilə sertifikatlaşdırma prosesinə dair məlumatverici görüş keçirilib.

Görüşdə çıxış edən Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Rüfət Hacıyev sertifikatlaşdırma ilə bağlı görülən dəstək tədbirlərinin əhəmiyyətini vurğulayıb, təhsilverənlərə uğurlar arzulayıb.

Daha sonra Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin əməkdaşı Tükəzban Quliyeva sertifikatlaşdırma prosesinin əhəmiyyətindən danışıb, təhsilverənlərin sertifikatlaşdırılması ilə bağlı təqdimatla çıxış edib.

Görüşdə sertifikatlaşdırmanın mərhələləri, məzmunu ilə bağlı məsələlər barədə fikirlər səslənib, çərçivə sənədi və ibtidai təhsil, metodika üzrə nümunə test tapşırıqları izah edilib.

***

Xaçmaz rayonunda direktor, direktor müavinləri və ibtidai sinif müəllimləri ilə sertifikatlaşdırma prosesinə dair məlumatverici görüş keçirilib.

Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Rüfət Hacıyev sertifikatlaşdırma prosesinin əhəmiyyətindən, proseslə bağlı görülən dəstək tədbirlərindən danışıb, təhsilverənlərə uğurlar arzulayıb. Rüfət Hacıyev idarəyə tabe olan ümumi təhsil müəssisələrinin müəllimləri üçün Quba rayonunda sertifikasiyaya dəstək mərkəzinin yaradıldığını bildirib.

Görüşdə Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin əməkdaşı Tükəzban Quliyeva təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı çıxış edib, sertifikatlaşdırmanın təkcə qiymətləndirmə deyil, həmçinin təhsilverənlər üçün peşəkar inkişaf aləti olduğunu vurğulayıb.

Təhsil İnstitutunun ibtidai təhsil üzrə təlimçisi Vəfa Məmmədova sertifikatlaşdırmanın mərhələləri, məzmunu ilə bağlı məsələlər barədə fikirlərini bölüşüb, metodika üzrə nümunə test tapşırıqlarını izah edib.

**Tədbirlərdə görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb**

# Bakı Ali Neft Məktəbində "Məzun günü"




Bakı Ali Neft Məktəbində "Məzun günü" keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov əlamətdar gün münasibətilə məzunları təbrik edərək onlara gələcək həyat və peşə fəaliyyətlərində uğurlar arzulayıb. Fəaliyyətə başladığı gündən bu təhsil ocağının yüksəkixtisaslı, ingilisdilli peşəkar kadrlar hazırlamaq missiyasını uğurla yerinə yetirdiyini deyən rektor ümumilikdə 168 tələbənin təhsilini başa vurduğunu bildirib. Rektor onların ölkəmizi layiqincə təmsil edəcəyinə əminliyini ifadə edib.

Tədbirdə çıxış edən SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə məzunları təbrik edərək onlara uğurlar arzulayıb. Akademik tələbələrin burada peşəkar kadrlar kimi yetişdiyini, alıdqları bilik və bacarıqların həyatlarının növbəti mərhələsində böyük rol oynayacağını bildirib.

Daha sonra təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək Bakı Ali Neft Məktəbinin qısa müddət əvvəl fəaliyyətə başlamasına baxmayaraq böyük uğur və nüfuz qazandığını diqqətə çatdırıb. Nazir müavini fərqlənmə diplomu ilə bitirən məzunların sayına görə bu təhsil ocağının yüksək göstərici əldə edərək ölkənin ali təhsil müəssisələri arasında seçildiyini vurğulayıb.

Çıxışının sonunda təhsil nazirinin müavini məzunları təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra məzunlar çıxış edərək bu təhsil ocağının məzunu olmaqdan qürur hissi keçirdiklərini deyib, gənc mütəxəssis kimi yetişmələrində, bilik və bacarıqlarının formalaşmasında böyük əməyi olan fədakar müəllimlərinə təşəkkürlərini bildiriblər.

"Məzun günü" diplomların təqdimolunma mərasimi ilə davam edib.

Daha sonra 2022-ci ilin məzun buraxılışı üzrə Bakı Ali Neft Məktəbinin birincisi olan kimya mühəndisliyi ixtisasının tələbəsi Jalə Məmmədova adını rəmzi kötüyə həkk edib.

Tədbir Əməkdar artist, tarzən Şəhriyar İmanov və ansamblının, həmçinin "Merry Band" qrupunun ifasında konsert proqramı ilə davam edib.

Qeyd edək ki, 2021-2022-ci tədris ili üzrə Bakı Ali Neft Məktəbindən 107 bakalavr, 61 magistr məzun olur.







# Şagirdlərimiz medal sayını artırırlar

## Beynəlxalq Fizika Olimpiadasında




10-18 iyul 2022-ci il tarixlərində İsveçrədə Beynəlxalq Fizika Olimpiadası (onlayn) təşkil edilib. Məktəblilərimiz olimpiadada uğurla çıxış edərək 2 bürünc və 1 həvəsləndirici mükafat qazanıb.

Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Eşqin Alıyev və Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Sadiq Sadıxzadə bürünc medala layiq görülüblər. Bakı Dövlət Universitetinin nəzdindəki "Gənc istedadlar" liseyinin XI sinif şagirdi Rəfsan Həbibullayev isə həvəsləndirici mükafat əldə edib.

## 54-cü Beynəlxalq Kimya Olimpiadasında




10-18 iyul 2022-ci il tarixlərində Çində 54-cü Beynəlxalq Kimya Olimpiadası (IChO) onlayn şəkildə təşkil edilib.

Olimpiadada Bakı Dövlət Universitetinin nəzdindəki "Gənc istedadlar" liseyinin XI sinif şagirdi Nəriman Şirinli gümüş medal, Təhsil Nazirliyinin tabeliyindəki Gəncə şəhəri Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Məhsəti Piriyeva, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin X sinif şagirdi Dəniz Səttarlı və Astara rayonu Pensər kənd Z.Əhmədzadə adına 2 nömrəli məktəb-liseyin şagirdi Salman Hüseynov bürünc medal qazanıb.

**Şagirdlərimizi təbrik edir, onlara yeni-yeni nailiyyətlər arzulayırıq!**

# Tələbələrin köçürülməsinə başlanılır

İyulun 25-də saat 11:00-dan etibarən tələbələrin köçürülməsi prosesinə başlanılır.

Tələbələrin ölkə daxili və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə və xaricdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin köçürülməsi üzrə elektron sənəd qəbulu *transfer.edu.az* portalı vasitəsi ilə həyata keçirilir. Sənəd qəbulu iyulun 31-dək davam edəcək.

Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini və ya ixtisası seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları elektron müraciətlərinə daxil etməklə, köçürülmə qaydalarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

Köçürülmə üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal, qəbul olunduğu ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

# Tələbə və məzunlar praktiki bilik və bacarıqlarını artırıblar



## Siyasi elmlər və diplomatiya üzrə yay məktəbi başa çatıb

9-14 iyul tarixlərində "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə Şamaxı rayonunda təşkil olunan "Siyasi elmlər və diplomatiya üzrə yay məktəbi" başa çatıb.

Yay məktəbinin təşkilində əsas məqsəd tələbə və məzunların beynəlxalq münasibətlər, siyasi elmlər və diplomatiya mövzusu üzrə praktiki bilik və bacarıqlarının artırılması, onlara müxtəlif siyasi səpgili mövzulara dair interaktiv müzakirələrdə iştirak imkanı yaradaraq səmərəli platformanın yaradılmasıdır.

5 günlük yay məktəbində iştirakçılar üçün Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini, politoloq Fuad Çıraqov, Topçubaşov Mərkəzinin tədqiqatçısı Ayaz Rzayev, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin müdiri Yalçın Rəfiyev, təhsil nazirinin müşaviri Nicat Məmmədli, Xarici İşlər Nazirliyinin Avropa İdarəsinin rəis müavini Ruslan Rzayev, Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev, Topçubaşov Mərkəzinin həmtəsisçisi və direktoru Rusif Hüseynov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) direktoru Elməddin Mehdiyev, BP-nin Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlının təqdimatında müxtəlif mövzularda informativ sessiyalar keçirilib.

Sessiya və mühazirələrdən sonra iştirakçıların əylənərək öyrənməsi və asudə vaxtlarının səmərəli istifadəsi məqsədilə müxtəlif mövzularda debat turniri, "Nə? Harada? Nə zaman?" bilik yarışması və Şamaxı Astrofizika Rəsədxanasına ekskursiyası təşkil olunub.

Yay məktəbinin bağlanış mərasimi isə Bakı Slavyan Universitetində təşkil olunub. BSU-nun rektoru Anar Nağıyev və "Bir Könüllü" təşkilatının sədri Ülvi Əlizadə iştirakçılara təşəkkürlərini bildirərək, peşəkar dövlət xadimləri və diplomatların təqdimatı ilə keçirilən 5 günlük yay məktəbinin ölkəmizdə diplomatiya sahəsində ixtisaslı kadrların yetişməsində öz töhfəsini verəcəyinə inamlarını ifadə ediblər.

Daha sonra düşərgə iştirakçılarına sertifikatlar təqdim olunub.

# AzTU-da yeni tədris mərkəzinin açılışı olub






Azərbaycan Texniki Universiteti (AzTU), Fransanın Azərbaycandakı səfirliyi, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası və "Azərbaycan Dəmir Yolları" QSC-nin birgə təşkilatçılığı ilə AzTU-da yeni tədris mərkəzinin açılış mərasimi keçirilib.

Tədbirdə AzTU-nun rektoru Vilayət Vəliyev, Fransanın Azərbaycandakı səfiri Zakari Qros, Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Elnur Nəsibov, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının Təhsil Komitəsinin sədri, ADA universitetinin prorektoru Fariz İsmayılzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin İnsan Resursları İdarəsinin rəisi Tural Məmmədov və digər şəxslər iştirak ediblər.

Bildirilib ki, tədris mərkəzi AzTU ilə Fransanın "Alstom" şirkətinin birgə həyata keçirdiyi pilot layihədir. Burada dəmir yolu sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlanacaq. Mərkəzdə dəmir yolu sahəsi üzrə Fransa şirkətlərindən dəvət olunan mütəxəssislər tədris aparacaq. Burada tələbələrin dünyagörüşünün artırılması, dil biliklərinin təkmilləşdirilməsi, mühəndislikdə idarəetmənin əsasları və digər istiqamətlərdə biliklər veriləcək. Tədris mərkəzində təhsilini yüksək nailiyyətlərlə başa vuran tələbələr Fransa şirkətlərində, eləcə də "Azərbaycan Dəmir Yolları" QSC-də işlə təmin olunacaq. O da qeyd olunub ki, AzTU-nu dəmir yolu sahəsi üzrə bitirən bir neçə məzun artıq Fransa şirkətlərində işləmək üçün bu ölkəyə dəvət olunub. "Azərbaycan Dəmir Yolları" QSC-də isə hazırda AzTU-nun 400-ə yaxın məzunu müxtəlif vəzifələrdə çalışır.

Çıxışlardan sonra tədris mərkəzinin açılışı olub. Mərkəz tələbələrin istifadəsi üçün bütün lazımi avadanlıqlarla təchiz edilib.

# Təhsilin İnkişafı Fondu beynəlxalq əməkdaşlığa açıqdır

## Malala Fondunun həmtəsisçisi ilə onlayn görüş



Təhsilin İnkişafı Fondunun (TİF) İdarə Heyətinin sədri Elnur Nəsibov Malala Fondunun həmtəsisçisi Ziauddin Yousafzai ilə onlayn görüş keçirib. Görüşün əsas məqsədi ilkin tanışlıq, məlumat və təcrübə imkanlarının, eləcə də gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi olub.

Malala Fondu 2013-cü ildə Malala və atası tərəfindən qızların təhsilinin sosial və iqtisadi dəyərini vurğulamaq üçün təsis edilən qlobal Fonddur. Fondun əsas məqsədi bütün dünyada qızların ümumi təhsilə əlçatanlılığı və onların eşidilmə hüququnu təmin etməkdir. Qeyd olunub ki, dünyada 129 milyondan çox qız uşağının ümumi təhsil almaq imkanı məhdudlaşdırılmışdır. Fondun həmtəsisçisi Z.Yousafzai qurumun yaranma tarixi, fəaliyyət göstərdikləri bölgələr və icra etdikləri layihələr haqqında məlumat verib. Gələcəkdə birgə əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Onlayn görüş zamanı E.Nəsibov Təhsilin İnkişafı Fondunun məqsədi, fəaliyyəti, əsas prioritetləri və gələcək planları haqqında ətraflı məlumat təqdim edib. Malala Fondu ilə birgə qızların təhsilə inteqrasiyası mövzusunda layihələrin icrasına dair imkanlar barədə danışılıb.

# UNEC komandası "2022 Enactus Azərbaycan" milli yarışının qalibi oldu



"2022 Enactus Azərbaycan" milli yarışı uğurla başa çatıb.

"Enactus Azərbaycan" milli yarışının final mərhələsində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Naxçıvan Dövlət Universiteti və Bakı Mühəndislik Universitetinin komandaları layihələrini təqdim edərək, münsiflər heyətinin suallarını cavablandırıblar.

"Enactus Azərbaycan"ın İdarə Heyəti üzvlərindən ibarət münsiflər heyətinin qərarı ilə UNEC-in komandası "2022 Enactus Azərbaycan" milli yarışının qalibi elan edilib.

Qalib komanda oktyabrın 30-dan noyabrın 2-dək Puerto-Rikoda keçiriləcək "Enactus" dünya kubokunda ölkəmizi təmsil edəcək.

Xatırladaq ki, "Enactus" gələcək nəsil təşəbbüskar liderləri və sosial yenilikçiləri yetişdirərək daha yaxşı bir dünya yaratmağa hədəflənmiş dünyanın ən böyük təcrübə və öyrənmə platformasıdır. Bu məqsədlə "Enactus" gənclərə nəzəri biliklərini praktikada tətbiq etməyə, biznes, təhsil və sosial layihələrini həyata keçirməyə şərait yaradır, azad sahibkarlığı təbliğ edir. "Enactus" proqramı 1975-ci ildə ABŞ-da yaradılıb. Ölkəmizdə proqramı Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) təmsil edir.

## NDU-nun müəllim və tələbələri Türkiyə universitetlərində təcrübə keçirlər

Naxçıvan Dövlət Universiteti ilə (NDU) Türkiyənin nüfuzlu universitetləri arasında bağlanan əməkdaşlıq müqavilələrinə uyğun olaraq, NDU-nun tibb fakültəsinin müəllim və tələbələri qardaş ölkə universitetlərində də yay istehsalat təcrübəsinə başlayıblar. Təcrübələrdə, ümumilikdə 18 müəllim, 5 rezident və 112 tələbə olmaqla, 135 nəfər iştirak edir. Müalicə işi, Tibbi profilaktika və Stomatologiya ixtisası tələbələrinin üstünlük təşkil etdiyi təcrübədə onlar müəyyən olunmuş xüsusi proqram əsasında bölmələr üzrə müayinə və müalicələrdə, cərrahi əməliyyatlarda iştirak edirlər. Həmçinin, müəllim və tələbələr üçün universitetlərin görkəmli professorları tərəfindən mühazirələr də təşkil olunur.

Qeyd edək ki, ali təhsil ocağının müəllim və tələbələrindən ibarət heyət Türkiyənin Qazi, Ankara, Kayseri Ərciyes, Ərzurum Atatürk və Trabzon Qaradəniz Texniki universitetlərinin klinikalarında təcrübə keçirlər.

## BDU-da qrafen oksid kompozitlərinin ekologiyada tətbiqi müzakirə olunub

Bakı Dövlət Universitetinin (BDU) Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında "Qrafen və qrafen oksid kompozitlərinin sintezi metodları və ekologiyada tətbiq sahələri" mövzusunda elmi seminar keçirilib.

Seminarda Kimya fakültəsinin Nanomateriallar kimyası ixtisası üzrə məzunu Orxan İsmayılov eyniadlı məruzə edib.

O, çıxışında qrafen və qrafen oksid əsaslı kompozitlərin xassələri, müxtəlif sintez üsulları, ekologiyada tətbiq sahələrinə dair məlumatları seminar iştirakçılarının diqqətinə çatdırıb.

Sonra məruzəçi iştirakçıları maraqlandıran sualları cavablandırıb. Müzakirələrdə seminar iştirakçıları qrafen oksidi əsasında kompozitlərin strukturunun formalaşması və adsorbent kimi istifadəsi ilə bağlı məsələlərə toxunublar. Bu quruluşların istehsalının və tətbiqinin tibb, ekologiya və elektronika sahələrinin inkişafına ciddi təsir göstərəcəyi qeyd olunub.

# Məzunlar 40 ildən sonra görüşdülər





Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin İbtidai sinif müəllimliyi ixtisasından 40 il öncə məzun olan tələbələrin 40 nəfəri universitetin əsas binasında bir araya gəlib.

Tədbiri giriş sözü ilə açan rektor, professor Cəfər Cəfərov məzunların 40 ildən sonrakı görüşünü yüksək dəyərləndirərək deyib: "Tələbə yoldaşlarının belə görüşlərini sözlə ifadə etmək çox çətindir, bu hissləri yaşamaq lazımdır. Siz məzunlar bu gün həmin hissi yaşayırsınız. Mənə məlumat verildi ki, məzunların arasında elələri var ki, 40 ildir bir-birini görmürlər. Bu görüş müəyyən mənada onların da həyatını dəyişəcək. Siz bu gün 4 il qucağında təhsil aldığınız, sizin üçün "alma mater" rolu oynayan müqəddəs bir məkandasınız. Sizdən sonra burada çox şeylər dəyişib, infrastruktur yenilənib, əsas bina təmir edilib, auditoriyalar müasir İKT avadanlıqları ilə təchiz olunub. Universitetimizin imici ildən-ilə, gündən-günə yüksəlib. 10-15 il bundan əvvəl universitetimizə yüksək balla qəbul olunan tələbələrin sayı 5-10 nəfər olduğu halda, indi tələbələrimizin 80%-ə yaxını dövlət sifarişi ilə təhsil alır. Onların böyük əksəriyyəti 500-600 bal tolayanlardır. 640 bal toplayan tələbə sizin ixtisasda təhsil alır. Son illərdə universitetimizin tədris və elmi həyatında, beynəlxalq əlaqələrdə xeyli nailiyyətlər qazanmışıq. Corc Vaşinqton Universiteti ilə magistratura səviyyəsində ikili proqram həyata keçiririk. Artıq ikili diplom proqramı çərçivəsində təhsil siyasəti və idarəetməsi ixtisası üzrə ilk "Məzun günü" keçirmişik.

Yəqin xəbəriniz var ki, universitetin 100 illik yubileyini çox yüksək səviyyədə keçirtdik. Bununla bağlı xeyli elmi ədəbiyyat nəşr etdirmişik.Universitetimiz böyük struktura və şəbəkəyə malikdir. Universitetin 4 tədris binası Bakıda, 5 filialı isə rayonlarda yerləşir. Azərbaycan Dövlət Pedaqoji Kolleci də universitetimizin nəzdində yerləşir. ADPU ailəsinin 20 minə yaxın professor-müəllim və tələbə üzvü var. Bizim ailəmiz daha böyükdür. Sizlər də həmin ailənin üzvlərisiniz. Universitetimizin indiyə kimi 170 minə yaxın məzunu olub, bundan 16 mindən çoxu İbtidai təhsil fakültəsinin məzunlarıdır.

Vaxtı ilə təhsl aldığınız fakültədə Mehdi Mehdizadənin, Mərdan Muradxanovun, Musa Həsənovun ənənələri qorunub saxlanılır. Fakültədə Azərbaycan, rus bölmələri ilə yanaşı ingilis bölməsi də fəaliyyət göstərir. Eksperimental qrup kimi yaratdığımız bu bölmə artıq öz bəhrələrini verməkdədir. Bu il 11 tələbə ilk dəfə ingilis dilində buraxılış işi müdafiə etdi. Buraxılış işlərinin müdafiəsində iştirak edən təhsil naziri Emin Əmrullayev tələbələrimizin təqdimatlarından, dil və ünsiyyət bacarığından çox razı qaldı. Gələcək ibtidai sinif müəllimləri demək olar ki, peşə kompetensiyalarına tam yiyələnmişlər.

Mən istərdim ki, siz universitetimizin sinif otaqları, laboratoriyaları, tədris resursları və kitabxanası ilə yaxından tanış olasınız. Universitetimizin məzunları ilə sıx əlaqənin qurulması həm məzunların özləri, həm də bizim üçün faydalıdır".

Sonra tədbir Tədris Departamentinin Məzun və karyera şöbəsinin müdiri Könül Əsgərovanın moderatorluğu ilə davam edib. İbtidai təhsil fakültəsinin 1982-ci il məzunu, hazırda həmin fakültəyə rəhbərlik edən professor Fərrux Rüstəmov tədbirin təşkilinə mənəvi dəstək verən universitet rəhbərliyinə təşəkkürünü bildirdikdən sonra qeyd edib ki, bu görüş universitet-məzun əməkdaşlığının ən yaxşı formasıdır. Belə görüşlər həmişə olub, yaxşı bir ənənədir, qoruyub saxlamaq və inkişaf etdirmək lazımdır. Sonra o, fakültənin 40 il müddətindəki inkişafından, qazanılan uğurlardan danışıb, xatirələrini bölüşüb. Ayrı-ayrı rayonlarda, məktəblərdə çalışan tələbə yoldaşlarının pedaqoji uğurlarından bəhs edib. Dünyasını dəyişən müəllimlərini və tələbə yoldaşlarını hörmət və ehtiramla xatırladıb. Tədbirdə iştirak edən müəllimlər - professor Zahid Xəlil, baş müəllim Çiçək Hümbətova tələbələrlə bağlı xatirələrini dilə gətiriblər. Professor Zahid Xəlil çıxışında bildirib ki, bu görüş onun üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki nə tələbələr müəllimlərini, nə də müəllimlər tələbələrini unutmayıb.

Sonra məzunlar bir-bir söz alaraq xatirələrini paylaşıblar. Universitetin müasir təhsilimizdəki danılmaz rolunu və onun elm və təhsil ocağı kimi tanındığını dilə gətiriblər. Tələbəlik illərini kövrək xatirələrlə yad edən məzunlar sonda göstərdikləri diqqətə görə universitet rəhbərliyinə dərin təşəkkürlərini bildiriblər. Məzunlardan şairlər Çingiz Əliyevin və Xürrəm Qafanlının tələbəlik illəri ilə bağlı oxuduğu şeirlər alqışlarla qarşılanıb. Hökumə Vahabova tələbə yoldaşları ilə 5 il əvvəlki görüşü xatırladıb. Görüşdə İbtidai təhsil fakültəsinin 1982-ci il məzunlarına həsr olunmuş videoçarx nümayiş etdirilib. Görüşdən sonra məzunlar xatirə şəkli çəkdiriblər.

# Türkmənistanın Bakıdakı Baş konsulu Azərbaycan Dövlət Pedaqoji Universitetində olub





İyulun 19-da Türkmənistanın Bakıdakı Baş konsulu Sultan Açilov və 3-cü katib Bekmamed Keldjayev Azərbaycan Dövlət Pedaqoji Universitetində olub. Beynəlxalq əlaqələr üzrə prorektor, professor Mahirə Hüseynova qonaqlarla görüşüb və onları Azərbaycan Dövlət Pedaqoji Universitetində görməkdən məmnunluğunu ifadə edib.

Görüşdə Elm və innovasiyalar üzrə prorektor, professor Asəf Zamanov, rektorun müşaviri Ümid Mehdiyev və filologiya.az saytının rəhbəri Aynurə Əliyeva iştirak edib.

Prezident cənab İlham Əliyev tərəfindən uğurla aparılan daxili və xarici siyasət nəticəsində son illər ölkəmizdə, bütün sahələrdə olduğu kimi təhsil sahəsində də qazanılan böyük uğurlardan bəhs edən professor Mahirə Hüseynova qeyd edib ki, Azərbaycanla Türkmənistan arasında siyasi, iqtisadi əlaqələrimizin, eləcə də elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığımızın yüksək səviyyədə inkişafı daha da möhkəmlənməlidir.

Türk xalqlarının bir-birinin tarixinə, coğrafiyasına, etnoqrafiyasına, dilinə daha yaxından bələd olmaları üçün universitetlərarası əlaqələrə böyük önəm verilməlidir. Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Türkmənistan universitetlərinin birgə beynəlxalq konfranslarını, təlim və seminarlarını, kadr və tələbə mübadilələrini təşkil etmək olar ki, bütün bunlar hər iki dövlətin təhsil sahəsinə öz gözəl töhfələrini verə bilər.

Professor Mahirə Hüseynova ADPU-da Türk araşdırmaları kafedrası yaratmaq istəyindən də söz açıb.

Mahirə Hüseynova daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaranma tarixi, fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələrindən danışaraq, bu tədris ocağının dünyanın bir çox aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq etdiyini vurğulayıb. Beynəlxalq əlaqələr üzrə prorektorluğun nəzdində olan Əcnəbi tələbələrlə iş şöbəsində türk və çinli tələbələrə nisbətən türkmən tələbələrin çox az sayda olduğunu nəzərə çatdıran professor Mahirə Hüseynova gələcəkdə türkmən tələbələrin daha çox sayda Pedaqoji Universitetdə təhsil almaları üçün hər cür şəraitin olmasına diqqəti yönəldib.

Pedaqoji Universitetin dünyanın bir çox reytinqli universitetləri ilə əlaqələrinin olduğunu nəzərə çatdıran prorektor M.Hüseynova ADPU-nun Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramının olduğunu, bu sahədə böyük təcrübə qazandıqlarını bildirib.

Türkmənistan konsulu Sultan Açilov və 3-cü katib Bekmamed Keldjayev Azərbaycan Dövlət Pedaqoji Universitetinin Türkmənistan universitetləri ilə əlaqələrinin yaradılması, yeni proqram və layihələrin həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Elm və innovasiyalar üzrə prorektor, professor Asəf Zamanov Türkmənistan universitetləri ilə elmi-pedaqoji kadrların hazırlanmasında yeni əlaqələrin yaradılmasında maraqlı olduqlarını bildirib. Bir əsrlik tarixə malik Pedaqoji Universitetin 3 məzununun Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olduğunu qonaqlara fəxrlə söyləyən prorektor Asəf Zamanov hər iki qardaş ölkə arasında tələbə mübadiləsinə önəm verilməsinin vacibliyini xatırladıb.

Prorektor A.Zamanov türk xalqlarının dillərinin qoruması, öz dillərində danışması, kökünə, tarixinə bağlı olmasının əhəmiyyətindən bəhs edib. Ölkəmizdə Azərbaycan dilinə Prezident cənab İlham Əliyev tərəfindən göstərilən qayğı və diqqəti, dilimizin təmizliyi, qorunması ilə bağlı verilən sərəncam və qərarları nümunə göstərib.

Professor Asəf Zamanov Türkmənistan universitetləri ilə elmi sahədə əməkdaşlığın xüsusi önəmi olduğunu bildirib. Xüsusilə dissertasiya işlərinin müdafiəsi sahəsində yeni ixtisaslarla bağlı kadr çatışmazlıqlarının yarandığını, qarşılıqlı əlaqə nəticəsində bunun aradan qaldırıla biləcəyini bildirib. Həmçinin qeyd edib ki, magistr və doktorantların mübadiləsi də maraq dairəmizdədir. Universitetimizdə 8 dövrü jurnal fəaliyyət göstərir. Hər biri AAK-ın qeydiyyatından keçib. Bu mənada biz həm Türkmənistanda olan elmi dövrü jurnallarla, həm də elmi-pedaqoji kadrların hazırlanmasında yaxşı əməkdaşlıq edə bilərik.

Görüşdə Azərbaycan və Türkmənistanın elm, təhsil, mədəniyyət sahəsində əlaqələrinin möhkəmlənməsi, inkişaf etdirilməsi yolları müzakirə edilib, həmçinin, iki ölkənin təhsil sahələri arasında sıx əlaqələr çərçivəsində gələcək əməkdaşlığın daha da genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

ADPU-nun fakültələri haqqında qonaqları rektorun müşaviri Ümid Mehdiyev məlumatlandırıb. O, Pedaqoji Universitetdə tədris binaları ilə yanaşı tələbə yataqxanasının mövcud olduğunu, kadr hazırlığını həyata keçirən ixtisasların peşəkar müəllimlər tərəfindən öyrədildiyini diqqətə çatdırıb. Universitetin xarici əlaqələrinin də professor Mahirə Hüseynova tərəfindən yüksək səviyyədə qurulduğunu bildirib.

Ümid Mehdiyev universitetlərarası əlaqələrin inkişaf etdirilməsi üçün Türkmənistanın uyğun universitetləri ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında memorandum imzalanması ilə əlaqələri rəsmiləşdirmək və müzakirə olunan məsələləri həyata keçirməyin mümkünlüyündın danışıb.

Daha sonra prorektor Asəf Zamanov qonaqları ADPU-da yaradılan Türksoy kafedrası ilə tanış edib.

Səmimi qəbula görə Beynəlxalq əlaqələr üzrə prorektor Mahirə Hüseynovaya və Elm və innovasiyalar üzrə prorektor Asəf Zamanova təşəkkür edən Türkmənistanın baş konsulu Sultan Açilov bildirib ki, ADPU haqqında həmişə yüksək fikirlər eşidib. Burada təhsil alan azsaylı türkmənistanlı tələbələr də universitetdə olan təhsil mühitindən və tədrisin keyfiyyətindən razılıq ediblər.

ADPU-nun uğurlarından məmnunluğunu bildirən qonaqlar qardaş ölkə universitetlərinin əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdiriləcəyindən əminliklərini ifadə ediblər.

# 22 İYUL MİLLİ MƏTBUAT GÜNÜDÜR

## BŞTİ Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik edib







22 iyul-Milli Mətbuat Günü münasibətilə Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən media nümayəndələri ilə görüş keçirilib.

Tədbirdə təhsil nazirinin müşaviri, Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, BŞTİ-nin müdiri Mehriban Vəliyeva, İdarənin müvafiq struktur bölmə rəhbərləri və KİV nümayəndələri iştirak ediblər.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov Azərbaycan Milli Mətbuatının böyük və şərəfli inkişaf yolu keçdiyini, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olduğunu və mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirdiyini bildirib. Hər il Milli Mətbuat Gününün yüksək səviyyədə qeyd olunduğunu deyən təhsil nazirinin müşaviri bu faktı cəmiyyətin mətbuata verdiyi önəmin ifadəsi kimi dəyərləndirib. KİV nümayəndələrini peşə bayramı münasibətilə təbrik edən E.Nəsibov onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva media təmsilçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara paytaxtın təhsil həyatında baş verən yeniliklərin işıqlandırılmasında verdikləri dəstəyə və səmərəli əməkdaşlığa görə təşəkkürünü bildirib. Həmçinin təhsildən yazan, maarifçilik, məktəb təəssübkeşi olan qələm adamları ilə görüşdən məmnunluğunu ifadə edib.

Azərbaycan mediasının zəngin ənənələri olduğunu deyən M.Vəliyeva bütün peşəkar media qurumlarının təhsilə, məktəbə daim dəyər verdiyini və bu sahənin fəaliyyətinin obyektiv işıqlandırılmasında həssaslıq göstərdiyini diqqətə çatdırıb.

Azərbaycan mətbuatının inkişafında ulu öndər Heydər Əliyevin rolundan bəhs edən İdarə müdiri ölkəmizdə demokratik mətbuatın formalaşmasında, onun hüquqi-normativ bazasının yaradılmasında, azad sözün, fikir və mətbuat azadlığının təmin edilməsində Ümummilli Liderin xidmətlərindən söz açıb.

Həmçinin İdarə müdiri onu da qeyd edib ki, mətbuatın inkişafına dövlət qayğısı bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir. Azərbaycanda demokratik mətbuatın formalaşmasında, onun hüquqi normativ bazasının yaradılmasında, fikir və mətbuat azadlığının təmin edilməsində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər bütün dünyada yaxşı bir örnək kimi qəbul olunur.

Media nümayəndələri təşəkkürlərini bildirərək, qarşılıqlı əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Sonda media nümayəndələrinə Təşəkkürnamə və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

## ADNSU-da media nümayəndələri ilə görüş keçirilib









İyulun 21-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı 22 iyul - Milli Mətbuat Günü münasibətilə Kütləvi İnformasiya Vasitələrinin (KİV) nümayəndələri ilə görüşüb.

Milli Mətbuatın yaranmasının 147-ci ildönümü münasibətilə media nümayəndələrini universitetdə görməkdən məmnun olduğunu deyən rektor, professor M.Babanlı jurnalistləri peşə bayramı münasibətilə təbrik edib.

KİV nümayəndələrinə universitetdə tədrisin inkişafı istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən, əldə olunan uğurlardan danışan M.Babanlı bu işlərin cəmiyyətə çatdırılmasında medianın böyük rolu olduğunu və görülən işlərin işıqlandırılmasında verdikləri dəstəyə və səmərəli əməkdaşlığa görə jurnalistlərə təşəkkürünü bildirib. Bu gün ölkəmizdə medianın azad, demokratik şəraitdə fəaliyyətindən söz açan rektor M.Babanlı 44 günlük Vətən müharibəsində jurnalistlərin informasiya cəbhəsindəki xidmətlərini vurğulayıb və media nümayəndələrinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Milli Mətbuatın 147-ci ildönümü münasibətilə media nümayəndələrinə hədiyyələr təqdim olunub.

Tədbir çay süfrəsi ətrafında müzakirələrlə davam edib.

Uğurlu universitet-media əməkdaşlığına görə ADNSU rəhbərliyinə minnətdarlıqlarını ifadə edən KİV nümayəndələri rektor M.Babanlıya Milli Mətbuat Günü münasibətilə təşkil olunmuş görüşə görə təşəkkürlərini bildiriblər. Bundan sonra da universitetdə görülən işlərin cəmiyyətə çatdırılmasında hər zaman dəstək olacaqlarını və bu işdə yaxından iştirak etməyə hazır olduqlarını bildiriblər.

# MDU yeni inkişaf mərhələsində: əsas hədəflər və nəticələr

## 2021/2022-ci tədris ili: ali təhsil mühiti və idarəetmədə keyfiyyət dəyişiklikləri




**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

### Müasir ali təhsil mühitinin formalaşdırılması

Mingəçevir Dövlət Universitetində (MDU) müasir və əlverişli ali təhsil mühitinin təmin edilməsinə prioritet əhəmiyyət verilir. İdarəetmənin müasir dövrün tələblərinə uyğun və tələbəyönümlülük kontekstində təkmilləşdirilməsi, təhsilalanların və təhsilverənlərin hərtərəfli inkişafı üçün müvafiq şəraitin yaradılması, sənaye ilə səmərəli işbirliyinin qurulması,sosial fəaliyyətlərin genişləndirilməsi və cəmiyyətə fəal inteqrasiyanın təmin edilməsi, qarşılıqlı faydalı yerli və xarici əməkdaşlıqların inkişaf etdirilməsi MDU-da başlıca fəaliyyət istiqamətlərini təşkil edir.

### İdarəetmənin təkmilləşdirilməsi

Hesabat dövründə universitet idarəçiliyində çevik, şəffaf və rəqəmsal mexanizmlərin geniş tətbiqinə xüsusi diqqət göstərilmişdir. MDU-da mövcud struktur bölmələri arasında koordinasiyanın gücləndirilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması, yeni struktur bölmələrin yaradılması, əməkdaşların stimullaşdırılması və sosial rifahının yüksəldilməsi istiqamətində müvafiq addımlar atılmışdır.

Ali təhsilə göstərilən yüksək dövlət qayğısı, təhsil işçilərinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması prioriteti və MDU-nun mövcud maliyyə imkanları əsas tutularaq cari tədris ilində universitetin professor-müəllim və inzibati-texniki heyət üzvlərinin aylıq əməkhaqları orta hesabla 20 faiz artırılmışdır. Eyni zamanda, elmi nəşrlərdə dərc edilən əsərlərə görə MDU əməkdaşlarının müvafiq qaydada mükafatlandırılması həyata keçirilmişdir.

Dünya və milli ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq universitetin strukturunun təkmilləşdirilməsi məqsədilə müvafiq işçi qrupları yaradılmış və fəaliyyət göstərmişdir. İşçi qruplarının təklifləri əsasında cari tədris ilində MDU-da İnformasiya Texnologiyaları fakültəsinin yaradılması və Mühəndislik fakültəsinin yenidən qurulması ilə bağlı müvafiq tədbirlər həyata keçirilmiş, Pedaqoji fakültə Təhsil fakültəsi adlandırılmış,Magistratura və Doktorantura Təhsil Mərkəzi, Dayanıqlı İnkişaf və Regional İnnovasiyalar Tədqiqat Mərkəzi təsis edilmişdir.

Universitet idarəçiliyində tələbələrin daha fəal iştirakının təmin edilməsi hesabat dövründə də diqqət mərkəzində saxlanılmışdır. MDU-nun Elmi Şurası və fakültə elmi şuralarında, eləcə də imtahan sessiyasının obyektiv, şəffaf, ədalətli və mütəşəkkil keçirilməsi məqsədilə yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibində tələbələr fəal təmsil olunmuşlar. Bununla yanaşı, tələbə və valideynlərin istəklərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə cari tədris ilinin payız və yaz imtahan sessiyaları ərzində çevik onlayn kommunikasiya vasitələrindən biri kimi universitet rektorunun iştirakı ilə hər həftə “Açıq qapı” günləri keçirilmişdir. MDU-da “İmtahanlara dəstək qrupu” və “Qaynar xətt”in fəaliyyət göstərməsi imtahan sessiyasında operativliyin təmin edilməsinə və yarana biləcək neqativ halların dərhal aradan qaldırılmasına xidmət etmişdir.

Hesabat dövründə Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurasının üzvləri tədris prosesi və imtahan sessiyasını müşahidə etməklə və müvafiq müzakirələrə qoşulmaqla universitetin idarəçiliyinə fəal cəlb olunmuşlar.2021-ci ilin 6 oktyabr və 2022-ci ilin 6 iyul tarixlərində MDU rektorunun Şura üzvləri ilə keçirdiyi görüşlərdə müvafiq olaraq cari tədris ilinə hazırlıq və onun yekunları barədə fikir mübadiləsi aparılmışdır.

### “Rektorla söhbət” layihəsi

Universitet və cəmiyyətlə çevik kommunikasiyanın təmin edilməsi məqsədilə 2021/2022-ci tədris ilində MDU-da “Rektorla söhbət” layihəsinə start verilmişdir. Layihə çərçivəsində MDU üzvləri ilə yanaşı, regionun təhsil, elm, innovasiya və sahibkarlıq ekosisteminin nümayəndələri ilə davamlı olaraq keçirilməsi nəzərdə tutulan görüşlər universitetdə strateji fəaliyyətlərin yeni çağırışlara uyğunlaşdırılması işinə xidmət edir. Layihə ilə əlaqədar MDU rektorunun iki görüşü keçirilmişdir.

### Kadr potensialının və təhsilalanların hərtərəfli inkişafı

Həm akademik və inzibati heyət üzvlərinin, həm də təhsilalanların hərtərəfli inkişafının təmin edilməsi, onların bilik və bacarıqlarının artırılması məqsədilə müvafiq layihələrin, təlimlərin və maarifləndirici tədbirlərin keçirilməsinə MDU-da xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə həyata keçirilən bir çox fəaliyyətlərə MDU-da yeni yaradılan KİM təşkilatçılıq etmişdir.

### “Peşəkarla görüş”

Əsas məqsədi MDU-nun tələbələri, magistrantları və məzunlarının, akademik və inzibati heyət üzvlərinin müxtəlif aktual mövzular barədə peşəkarların bilik və bacarıqlarından faydalanması üçün imkanların yaradılmasından ibarət olan “Peşəkarla görüş” layihəsi çərçivəsində cari tədris ilində iki görüş təşkil edilmişdir. 2022-ci ilin 29 aprel tarixində “Dördüncü sənaye inqilabı və rəqəmsal iqtisadiyyat” mövzusunda keçirilən görüşün qonağı Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Tamerlan Tağıyev, 2022-ci ilin 8 iyun tarixində “Sahibkarlıq universiteti modeli: təhsil-elm-biznes üçbucağı” adlı növbəti görüşün qonağı isə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov olmuşdur.

### Karyera və şəxsi inkişaf

Hesabat dövründə MDU-da Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) maliyyə və texniki dəstəyi ilə yaradılan Karyera və İnkişaf Mərkəzinin (KİM) açılışı olmuşdur. Mərkəzin yaradılmasında əsas məqsəd əmək bazarında rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, karyera seçimi və məşğulluq problemlərinin həlli, işəgötürənlərlə əlaqələrin yaradılması, ali təhsilin növbəti səviyyələrində təhsilin davam etdirilməsi və karyera inkişafında digər vacib məsələlərdə təhsilalanlara, təhsilverənlərə və məzunlara köməklik göstərməkdir.

Cari tədris ilində KİM-in təşkilatçılığı ilə MDU-nun təcrübəli akademik heyət üzvləri, eləcə də tanınmış yerli və beynəlxalq təlimçilər tərəfindən universitetin tələbə və əməkdaşlarının yumşaq bacarıqlarının inkişafına hədəflənən, karyera və şəxsi inkişafı ilə bağlı müxtəlif təlimlər və maarifləndirici seminarlar keçirilmişdir. Bu istiqamətdə Türkiyədən olan beynəlxalq təlimçilər İşıl Keskin Şahan və Soner Şahan tərəfindən “İnnovativ idarəetmə bacarıqları” və “XXI əsrdə

**(Əvvəli qəzetin 15 iyul tarixli sayında)**

karyera inkişafı üçün peşəkar bacarıqlar”, ABŞ-ın Midlberi Beynəlxalq Araşdırmalar İnstitutunun professoru David Visk tərəfindən “Ali təhsilin beynəlmiləlləşməsi və müəllimlərin beynəlxalq əməkdaşlıqda iştirakı” və “ABŞ-da təhsil imkanları”, Rutqers Universitetinin professoru Huşəng Əmirəhmədi tərəfindən “Dayanıqlı inkişafda təhsilin artan rolu” və GIZ layihə meneceri Jalə Ələkbərova tərəfindən “XXI əsrin bacarıqları” mövzularında keçirilmiş seminarları, Gənc Avropa İttifaqının gənclər üçün təklif etdiyi təqaüdlü təhsil imkanları ilə bağlı Avropa Səfirləri şəbəkəsinin təşəbbüsü ilə təşkil edilmiş infosessiyanı xüsusi qeyd etmək olar.

Bunlarla yanaşı, MDU “Education HUB” sosial platformasının “YouthTech”, Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən “Gələcəyini qur!”, Dövlət Məşğulluq Agentliyinin “Tələbə İnkişaf Platforması”,“Peşələr Festivalı”, Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun regional ofisi Gəncə Destinasiya Menecmenti Təşkilatının “Təlimçilər üçün təlim” layihələrində fəal təmsil olunmuşdur. MDU KİM-in və “ParaBOKT” ASC-nin birgə təşkilatçılığı ilə universitetdə “Karyera günü” təşkil edilmişdir.

### Tədqiqat bacarıqlarının inkişafı

2021-ci ilin dekabrında MDU və ADA Universitetinin birgə təşkilatçılığı ilə “Ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi yolları” mövzusunda elmi-praktik seminar keçirilmişdir. ADA Universitetinin təcrübəli əməkdaşları “Elmi-tədqiqat işi üçün məlumatların toplanması və təhlili” və “Universitetlər arasında birgə elmi-tədqiqat işlərinin təşkili” mövzularında təqdimatlarla çıxış etmişlər.

2022-ci ilin fevralında MDU-da Təhsil Nazirliyi və Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin birgə dəstəyi ilə “Open Science Azərbaycan: gənc tədqiqatçılar arasında Open Science platformasının təbliği” mövzusunda seminar təşkil olunmuşdur.

Bununla yanaşı, hesabat dövründə Böyük Britaniyanın Oksford Universitetinin akademik heyət üzvü Rüstəm Cəmilov tərəfindən “Xaricdə təhsil və tədqiqat təcrübəsi”, Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı Aytən Hüseynli tərəfindən“Akademik yazının tamlığı, əsas prinsip və modelləri”, Türkiyənin Qazi Universitetinin MDU-da fəaliyyət göstərən professoru Ercan Nurcan Yılmaz tərəfindən “Effektiv elmi təqdimat” və “Elmi tezisin hazırlanmasında ədəbiyyatın əhəmiyyəti” mövzularında seminarlar keçirilmişdir.

### Pedaqoji kadrların peşəkarlığının artırılması

Hesabat dövründə “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platforması ilə birlikdə “Pedaqoji kadrların peşəkar inkişafı” layihəsi reallaşdırılmışdır. Layihə çərçivəsində “Dərsin planlaşdırılması” və “Müasir təlim strategiyaları” mövzularında təlimlər keçirilmişdir.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə əməkdaşlıq çərçivəsində MDU-da yeni akkreditiasiya qaydaları, sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi barədə keçirilən maarifləndirici seminarlar akademik və inzibati heyət üzvlərinin tədris prosesinin idarə edilməsində peşəkarlığının artırılmasına hədəflənmişdir.

Eyni zamanda, cari tədris ilində MDU-da tələbə və əməkdaşların sahibkarlıq, xarici dil, rəqəmsal və media bacarıqlarının inkişafı məqsədilə müxtəlif mövzularda təlimlər və seminarlar təşkil edilmişdir. Bu istiqamətdə Almaniyanın Siegen Universitetinin qonaq professoru Müslüm İbrahimov tərəfindən “Sahibkarlıq ekosistemi”, MDU-nun qonaq professorları Ercan Nurcan Yılmaz və Cemal Yılmaz tərəfindən “Süni intellekt” mövzusunda keçirdikləri seminarları və “Kiber təhlükəsizlik günləri” çərçivəsində təlimləri xüsusi vurğulamaq olar.

### Sənaye ilə işbirliyinin gücləndirilməsi

Regional innovasiya ekosisteminin başlıca faktorlarından birinə çevrilməyi hədəfləyən MDU-da kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və tədqiqatların nəticəyönümlüyünün artırılması məqsədilə müxtəlif formatlı təhsil-sənaye əməkdaşlığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir.

### SOCAR ilə əməkdaşlıq

2022-ci ilin aprelində SOCAR və onun “Cənubi Qafqaz Boru Kəməri Şirkəti”ndəki (CQBK) tərəfdaşları ilə MDU arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda MDU və “SOCAR Midstream” arasında müasir təhsil proqramları sahəsində əməkdaşlıq, mövcud potensialın gücləndirilməsi və yüksəkixtisaslı kadrların hazırlanması, regionların dayanıqlı inkişafına töhfə verən müxtəlif əməkdaşlıq təşəbbüslərinin həyata keçirilməsi və digər məsələlər əksini tapmışdır.

### Azərbaycan Sahibkarlar Konfederasiyası ilə əməkdaşlıq

2022-ci ilin aprelində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Mingəçevir Dövlət Universiteti (MDU) arasında əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə görüş keçirilmiş və əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Cari ildə ASK ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə hazırlanmış müvafiq fəaliyyət planı üzrə tədbirlərin keçirilməsinə başlanılmışdır.

### “Azərbaycan İES” MMC ilə əməkdaşlıq

MDU və “Azərbaycan İES” MMC ilə əməkdaşlıq çərçivəsində ekskursiya, “dəyirmi masa”, elmi-praktik konfrans və məşğələ dərsləri təşkil edilmişdir. Bununla yanaşı, 2021-ci ilin noyabr-dekabr aylarında MDU-nun Mühəndislik fakültəsində təhsil alan 16 tələbənin iştirakı ilə “Azərbaycan İES”-də iki həftəlik təlim-təcrübə proqramı, 2022-ci ilin mart ayında isə universitetin təcrübəli akademik heyət üzvləri tərəfindən İES-in gənc əməkdaşları üçün təlim proqramı həyata keçirilmişdir.

### “Universitet-peşə məktəbi-sənaye” əməkdaşlıq formatı

MDU, Mingəçevir Peşə Məktəbi (MPM) və “Azmade Group” MMC şirkəti arasında “universitet-peşə məktəbi-sənaye” formatında üçtərəfli əməkdaşlıq hesabat dövründə uğurla davam etdirilmişdir. Bu çərçivədə MDU-nun 5 və MPM-in 2 tələbəsinin iştirakı ilə“Azmade Group” MMC-yə daxil olan Zəyəm Texnologiyalar Parkında (ZTP) “Yay Təcrübə Proqramı” reallaşdırılmışdır. Bundan əlavə, 2022-ci ilin iyun ayında MDU və Bərdə Peşə Liseyi arasında əməkdaşlığın əsası qoyulmuşdur.

Bunlarla yanaşı, “Kapital Bank” ASC, “Atəşgah” Sığorta Şirkəti və Mingəçevir Sənaye Parkı ilə əməkdaşlıq davam etdirilmiş, MDU tələbələri müxtəlif sənaye müəssisələrində ekskursiyada və təcrübədə olmuşdurlar.

### Çoxşaxəli tələbə fəaliyyətləri

MDU-da tələbəyönümlü təhsil mühitinin yaradılmasına, tələbə gənclərin hərtərəfli inkişafına, onların universitet idarəçiliyində fəal təmsil olunmasına, çoxşaxəli könüllülük fəaliyyətinə cəlb edilməsinə və tələbə təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.Universitetin tələbə və magistrantları Qarabağ Zəfərinin birinci ildönümünə, “Şuşa ili”nə, eləcə də digər əlamətdar günlərə və tarixi şəxsiyyətlərə həsr olunan tədbirlərdə,elmi konfranslarda, müvafiq təbliğat və maarifləndirmə işlərində, iməciliklərdə, startap və könüllülük fəaliyyətlərində, müxtəlif bilik, yaradıcılıq, idman müsabiqələri və yarışlarında yüksək fəallıq nümayiş etdirmiş və uğurlu nəticələrə nail olmuşlar.

### Ümummilli Liderə həsr olunan respublika müsabiqələrində uğurlu iştirak

2021-ci ilin noyabrın 12-də Heydər Əliyev Mərkəzinin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı və ölkənin 48 ali təhsil müəssisəsinin iştirakı ilə keçirilən “Heydər Əliyev və Azərbaycan tarixi” VII ümumrespublika bilik yarışında MDU-nun tələbələrdən ibarət komandası 11-ci yerdə qərarlaşmışdır.

Cari ilin aprel-may aylarında Təhsil Nazirliyi və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarı və təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş müsabiqə-festivalına MDU tələbələri də fəal qatılmışlar. Müsabiqə-festivalda MDU “Müasir rəqs” nominasiyası üzrə II yer tutmuşdur.

### Startap fəaliyyətlərində nailiyyətlər

Qardaş Türkiyənin ən böyük aerokosmik və texnologiya festivalı olan “TEKNOFEST 2022”-nin final mərhələsində MDU 13 tələbə və mentorun daxil olduğu 3 komanda ilə fəal təmsil olunmuşdur. Festivalın “Aqrar texnologiyalar” müsabiqəsində MDU-nun “Sevil” komandası “Ağıllı müqəvva - əkin tarlalarının uzaqdan qorunması”, “Aqrinova” komandası “İrrinova - süni intellektlə suvarmanın uzaqdan idarə olunması” və “Smart Qarabağ” hakatonunda “Zəfər” komandası “GarabaghVRTEX - Qarabağdakı tarixi məkanların virtual reallıq ilə gəzinti cihazının dizaynı” layihələrini nümayiş etdirmişlər.

Bundan əvvəl, MDU-nun “Aqrinova” komandası Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi və digər tərəfdaşların birgə təşkilatçılığı ilə keçirilən Bakı Qida Hakatonunun qalibi olmuş və 5000 avro məbləğində pul mükafatı qazanmışdır.

Eyni zamanda, 2022-ci ilin 18-20 may tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən 15-ci Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində (Caspian Agro 2022) universitetin tələbə və gənc əməkdaşlarından ibarət heyət kənd təsərrüfatı məhsullarının minimum itki ilə daşınması və məhsulların marşrut boyunca izlənilməsi kimi problemlərin innovativ həllini təklif edən“AZIOT” startap layihəsini təqdim etmişdir.

### Vətənpərvərlik tərbiyəsi

Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan MDU-da təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. MDU-da Qarabağ Zəfərinə və qəhrəmanlara həsr edilən, tariximizin faciəvi və şanlı səhifələrinin, milli mənəvi dəyərlərin və adət-ənənələrin öyrənilməsinə və təbliğ edilməsinə hədəflənən müxtəlif formatlı çoxsaylı tədbirlər keçirilmişdir. Müntəzəm olaraq universitetin şəhid məzunlarının ailələri ziyarət edilmiş, Şəhidlər xiyabanında onların əziz xatirələri anılmış, qazi məzunlarla görüşlər, şəhid məzunların ildönümü ilə əlaqədar anım tədbirləri keçirilmiş, kollektiv üzvlərinin Ağdama səfəri təşkil edilmiş, qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə tələbə və əməkdaşların fəal iştirakı təmin edilmişdir.

### COVID-19 pandemiyasına qarşı mübarizə

COVID-19 pandemiyasının davam etdiyi bir şəraitdə MDU-da kollektiv üzvlərinin sağlamlıqlarına, xüsusi karantin rejiminin tələblərinə riayət edilməsinə, tələbə və müəllim kollektivinin müvafiq dozalar üzrə vaksinasiya prosesində fəal iştirakına, müntəzəm olaraq tibbi-profilaktik və dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət yetirilmişdir.

### Təhsil nazirinin MDU-ya gəlişi

Cari ilin iyunun 28-də təhsil naziri Emin Əmrullayevin MDU-ya gəlişi universitetə göstərilən diqqət və dəstəyin ifadəsi, eləcə də əldə edilən uğurların məntiqi nəticəsi kimi dəyərləndirilmişdir. Nazir universitetə ziyarəti çərçivəsində MDU-da Kiber Təhlükəsizlik Laboratoriyasının açılışında, magistrantların “Poster Sessiyası”nda və “Məzun Günü 2022” tədbirində iştirak etmiş, yeni kampus üçün ayrılmış əraziyə baxış və kollektiv üzvləri ilə görüş keçirmişdir.

**(ardı var)**

# Məktəb əsaslı psixososial dəstək proqramı



**Məktəb əsaslı psixoloji xidmət şagirdlərə müsbət davranış modelinin aşılanması, təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması, təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi və proqressiv inkişafını, habelə səriştələrinin artırılmasını ehtiva edir**

Böhran vəziyyətlərin və fövqəladə halların uşaq və yeniyetmələrin psixososial rifahına və inkişafına əhəmiyyətli təsiri geniş şəkildə qəbul edilmişdir. Münaqişənin və fövqəladə halların bilavasitə təhlükələri mövcud olmadıqda belə, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən aparılan çoxsaylı tədqiqatlar göstərir ki, uşaqların yaşadıqları təcrübələr (təhlükəsizlik, zorakılığa məruz qalma, ailə üzvlərinin və dostlarının itirilməsi və ya onlardan ayrılması, həmçinin əsas xidmətlərə çıxış məhdudiyyəti və s.) onlarda qısa və uzunmüddətli psixoloji izlər buraxır (WHO, 2017).

Bu əsasda Azərbaycanda 2020-ci ilin 27 sentyabrında başlanan və noyabrın 10-da Zəfərlə başa çatan Vətən müharibəsində dinc əhalini də hədəfə alan erməni vəhşiliyi cəbhəyanı bölgələrdə yaşayan 594,700 uşağa təsir etmişdir (UNICEF Azerbaijan, 2020). BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən aparılmış fövqəladə vəziyyətlərdə təhsil ehtiyaclarının qiymətləndirilməsi tədqiqatı cəbhə bölgəsindəki hərbi əməliyyatlardan təsirlənən bir çox uşaqda müharibə stresi səbəbi ilə psixoloji gərginlik, kəkələmə və davranış problemləri yaratdığını aşkar etmişdir (UNICEF, 2021).

Eyni zamanda, Beynəlxalq Qızıl Xaç Komitəsinin müşahidələri göstərmişdir ki, uşaqların həyat sevgisi, dünyanın təhlükəsiz və ədalətli olduğuna inamları itmişdir (ICRC, 2021). Ümumiyyətlə, uşaqların depressiya, narahatlıq, sıxıntı, travma sonrası stres pozğunluğu və digər psixoloji problemlərlə üzləşməsi humanitar böhran kontekstində geniş müşahidə edilir. Uşaqların sağlamlığı bu kimi kompleks təsirə məruz qaldıqda, formal və ya qeyri-formal təhsilə çıxışın olmaması onların müdafiəsi və rifahı üçün riskləri daha da artırır. Belə ki, Lasater və həmkarları (2022), Mattinqli (2017), həmçinin UNICEF-ə (2016) istinadən, məktəb davamiyyəti normallıq hissini bərpa etməyə kömək olur, həmyaşıdlar və pedaqoqlarla müsbət qarşılıqlı əlaqələr vasitəsilə sosial dəstək və qayğıya ehtiyacı təmin edir və mühüm həyat bacarıqlarının formalaşdırılması üçün imkanlar yaradır. Bu baxımdan, müharibə ilə yanaşı COVID-19 pandemiyası da keçmiş cəbhəyanı bölgələrdə yaşayan uşaqların həyatına mənfi təsirlərini göstərmiş, onların psixoloji travmalarını dərinləşdirmişdir.Müvafiq olaraq, münaqişə və fövqəladə hallardan təsirlənən əhali içərisində ən həssas qrup olan uşaq və yeniyetmələr arasında davamlılığın yaradılması, eləcə də onların zehni sağlamlığının və psixososial rifahının qorunması üzrə adekvat addımların atılması üçün zərurət yaranmışdır.

Beynəlxalq mütəxəssislərin tövsiyələrinə əsasən, məktəb əsaslı dəstək proqramları münaqişə və ya fəlakətdən təsirlənən uşaqların və yeniyetmələrin əksəriyyətinin bərpasına kömək edə bilir.Təhsil müəssisələrininhəm öyrənmə məkanı, həm də adətən yeniyetmələr üçün psixi sağlamlıq xidmətlərinin dominant təminatçıları kimi qəbul edildiyini nəzərə alaraq, fövqəladə vəziyyətlərdə yaşanan stresli hadisələrin psixoloji təsirinin həllində və uşaqlara psixososial dəstək göstərilməsində məktəb əsaslı psixososial dəstək proqramlarının əhəmiyyəti və müvəffəqiyyəti yüksək qiymətləndirilir (Baker və b., 2006; INEE, 2018; Lasater və b., 2022; Mattingly, 2017; Schanding və Nowell, 2013; UNICEF,2016). Sözügedən proqramlar uşaq və yeniyetmələri stresli hadisələrin və vəziyyətlərin mənfi təsirlərini minimuma endirməyə, mübarizə qabiliyyətlərini gücləndirməyə, ünsiyyəti yaxşılaşdırmağa, sosial-emosional bacarıqlarını artırmağa, öz emosiyalarını daha yaxşı başa düşməyə, idarə etməyə və daha çox mənlik hissini inkişaf etdirməyə, travmatik simptomları azaltmağa və itki, qorxu, stresin öhdəsindən gəlməyə kömək olacaq bilik və bacarıqlarla təmin edir.

Bu səbəblə, 2021 və 2022-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və UNICEF ilə birgə Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) tərəfindən "Fövqəladə vəziyyət şəraitində uşaqlara və yeniyetmələrə məktəb əsaslı psixososial dəstəyin göstərilməsi" adlı layihə həyata keçirilmişdir. Layihənin əsas məqsədi ölkənin təsirə məruz qalmış bölgələrində məktəblərin psixoloji dəstək xidmətləri sahəsindəki potensialını gücləndirmək, məktəb heyətini və təhsilverənləri münaqişənin psixososial təsiri haqqında əsas anlayışlar barədə məlumatlandırmaq və onların bu istiqamətdə peşəkar inkişafını təmin etmək olmuşdur.Layihə çərçivəsində Gəncə və Naftalan şəhərləri, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər və Tovuz rayonlarında fəaliyyət göstərən müəllimlər "Əsas sosial-emosional bacarıqların inkişafı", məktəb psixoloqları isə "Böhran vəziyyətdə məktəbdə ilkin psixoloji yardım bacarıqları" adlı proqramlar üzrə müvafiq təlimlərə cəlb edilmişdir.

Böhran vəziyyətin həyəcanlı anlarını yaşayan şagirdə müəllim necə kömək ola bilər? Bir çox ölkələrdə aparılan tədqiqatlar göstərir ki, müəllimlərin sosial və emosional bilik və bacarıqları uşaqların psixososial vəziyyətinə müsbət dərəcədə təsir göstərmiş və onların psixoloji sağlamlığının təşviqinə müdaxiləni effektiv şəkildə həyata keçirə bilmişdir (Dhital və b., 2019; Mattingly, 2017; UNICEF, 2016; Vranda, 2015). Belə ki, müvafiq sahədə təlimləndirilmiş müəllimlər psixososial məsələləri pedaqogika, dərsin planlaşdırılması və sinif idarəçiliyinə inteqrasiya edərək, şagirdlərin psixoloji rifahının yaxşılaşdırılmasına səbəb olur.

Bu baxımdan, ARTİ tərəfindən uşaqlar və yeniyetmələrə psixososial dəstəyin göstərilməsinə dair müəllimlər üçün hazırlanmış "Əsas sosial-emosional bacarıqların inkişafı" adlı təlim proqramında stresin mənfi təsirini aradan qaldırmağın və stresi idarə etməyin mümkün yolları, sosial-emosional öyrənmə və psixoloji məmnunluğu dəyərləndirmənin əsasları, uşaqlarda şəxsiyyətdaxili və şəxsiyyətlərarası bacarıqların inkişaf etdirilməsi üçün tövsiyələr, dəstəkləyici sinif mühitinin yaradılması üçün strategiyalar kimi mövzular əhatə olunmuşdur. Eyni zamanda, proyektiv testlər, qruplar üçün situasiya tapşırıqları, bədən və tənəffüs meditasiyası, dialoqlar, emosiyaların ifadə olunması, empatiyanın məşq edilməsi, nağıl və art terapiya vasitəsilə sosial-emosional bacarıqların inkişafı və modelləşdirilməsi kimi praktik tapşırıqlar da təlim proqramına daxil edilmişdir. Məqsəd müəllimlərə peşəkar inkişaf təlimi verməklə onların öz səriştələrini və sinif təcrübəsini gücləndirməyə imkan yaratmaq idi. Məlumdur ki, müəllimlər öz bilik və bacarıqlarını artırarsa, şagirdlər də bundan faydalanar. Buna görə "Əsas sosial-emosional bacarıqların inkişafı" adlı təlimlər müəllimlərin dərs mühitində nəzəri və praktik vasitələrdən (oyunlar, tapşırıqlar, qrup və ya fərdi işlər və s.) istifadə edərək şagirdlərin özünüdərketmə və özünüidarəetmə, məsuliyyətli qərar qəbuletmə, problemlərin öhdəsindən gəlmə, tənqidi və yaradıcı tərzdə düşünmə, effektli ünsiyyət qurma, sağlam sosial münasibətlər yaratma kimi sahələrdə inkişafına təkan vermişdir.

Uşaq və yeniyetmələrin psixi sağlamlığının inkişafında məktəb psixoloqlarının rolu da danılmazdır. Onlar uşaqların psixososial ehtiyaclarının qarşılanmasında profilaktik yanaşmadan istifadə etməklə hərtərəfli dəstək göstərmək imkanına malikdirlər. Məhz bu səbəbdən, mütəxəssislər tərəfindən məktəb əsaslı dəstək proqramlarına psixoloqların daxil edilməsi və onlarla pedaqoqlar arasında əməkdaşlığın yaradılması məsləhət görülür (Baker və b., 2006; Vranda, 2015). Müvafiq olaraq, adıçəkilən layihə çərçivəsində hazırlanan "Böhran vəziyyətdə məktəbdə ilkin psixoloji yardım bacarıqları" adlı təlim proqramı uşaq və yeniyetmələr arasında müxtəlif psixi travmaların aradan qaldırılması üçün məktəb psixoloqlarının şagird, müəllim və valideynlərlə aparacağı maarifləndirmə, böhran vəziyyətlərin profilaktikası və diaqnostikası, ilkin psixoloji yardım texnikaları və böhran vəziyyətlərdə lazım ola biləcək psixoloji qiymətləndirmə metodları üzrə bilik və bacarıqların formalaşdırılmasına istiqamətlənmişdir. Məktəb əsaslı psixoloji xidmət şagirdlərə müsbət davranış modelinin aşılanması, təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması, təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi və proqressiv inkişafını, habelə səriştələrinin artırılmasını ehtiva edir. Bu əsasda sözügedən təlimlər məktəb psixoloqlarını böhran vəziyyətin və onun izlərinin (itki, ölüm, qorxu və s.) müxtəlif yaş qrupundan olan uşaqlara təsiri (fizioloji, emosional, koqnitiv və sosial), bu təsirin onların davranışında təzahür formalarının müəyyənləşdirilməsi və onların ehtiyaclarının ödənilməsinin təmin olunmasına yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi üçün lazımi bilik və bacarıqlarla təmin etmişdir.

2021 və 2022-ci illərdə adıçəkilən proqramlar əsasında hibrid formatda təşkil edilən təlimlərdə ümumilikdə 6000-dən çox müəllim və 500-dən çox məktəb psixoloqu iştirak etmişdir. Aparılan mütəmadi monitorinqlər, həmçinin müdavimlər (müəllimlər və məktəb psixoloqları) arasında keçirilən sorğular nəticəsində təlimlərin məktəbdə uşaqların psixologiyasının yaxşılaşdırılması üçün faydalı olacağı düşünülür. Sorğuların müəllim respondentlərinin 97%-i, məktəb psixoloqlarının isə təxminən 98%-i tədris edilən mövzuların onların gələcək fəaliyyətlərinə mühüm dərəcədə təsirinin olduğunu bildirmişlər. Xüsusilə, təlimlər zamanı nəzəri biliklərlə yanaşı, praktik bacarıqların artırılmasına şərait yaradılması və nəzəriyyə və praktika vəhdətinin qurulması yüksək qiymətləndirilmişdir. Belə ki, proses əsnasında keçirilən praktiki oyunlar, testlər, proyektiv metodikalar, dərslərin real həyatla əlaqələndirilməsi, situativ mövzularla bağlı tapşırıqlar, şagirdlərdə ailə rəsminin təhlili, fantastik heyvan rəsmləri, hekayə qurmaq, rollu oyunlar və qrup terapiyası kimi mövzular məktəb psixoloqlarının diqqətini cəlb etdiyi təqdirdə, videoçarxlar, meditasiya proqramları, psixogimnastik çalışmalar, qrup və fərdi tapşırıqlar kimi müxtəlif vasitə və materialların tətbiqi müəllimlər tərəfindən müsbət dəyərləndirilmişdir. Maraq doğuran bir məqam həm müəllimlər, həm də məktəb psixoloqları tərəfindən bənzər təlimlərin davamlı olaraq keçirilməsinin təklif edilməsi idi. Bu, psixososial dəstək sahəsində potensialın gücləndirilməsinə və maarifləndirici tədbirlərin aparılmasına ehtiyac olduğunu bir daha ifadə edir.

Lakin qeyd etmək vacibdir ki, psixososial dəstək yalnız böhran vəziyyətlərdə deyil, sabit dövrlərdə də göstərilməlidir. Ümumdünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə görə, qlobal miqyasda uşaq və yeniyetmələrin təxminən 20%-i psixi sağlamlıq problemlərindən əziyyət çəkir ki, bu, daha çox yetkinlik dövründə fiziki, psixoloji və davranış dəyişikliklərinin baş verdiyi zaman müşahidə olunur (WHO, 2017). Mattinqliyə (2017) görə, uşaqların və gənclərin sosial və emosional rifahını təşviq etmək üçün məktəb mühiti yaxşılaşdırılmalı, məktəb heyətinə dəstək göstərilməli və şagirdlərin bacarıqları artırılmalıdır. Bu səbəbdən, ümumtəhsil müəssisələrinin təhsilverənlərinin və psixoloqlarının davamlı peşəkar inkişafını təmin etmək məqsədilə "Əsas sosial-emosional bacarıqların inkişafı" və "Böhran vəziyyətdə məktəbdə ilkin psixoloji yardım bacarıqları" adlı təlim proqramlarının sabit vəziyyətlərə uyğunlaşdırılaraq ixtisasartırma proqramı kimi təsdiq edilməsi üçün ARTİ-nin Elmi Şurasına təqdim olunması nəzərdə tutulur. Bu, məktəbəsaslı psixososial dəstək proqramının ölkə miqyasında tətbiqinə və psixososial xidmət əsasında təhsil müəssisələrində dayanıqlığın təmin olunmasına, şagirdlərin psixoloji rifahının qorunmasına imkan verəcəkdir.

**Ülkər BABAYEVA,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini*

**Nailə ÖMƏROVA,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Layihələrin idarə olunması şöbəsinin müdiri*

# Alim ömrünün nağılı...



"Mən dünyada elə töhfə tanımıram ki, elmin töhfəsindən üstün olsun", "Alim bu dünyanın işığı, axirətin çırağıdır". XV əsrdən üzübəri cəmiyyətin ictimai intibahına misilsiz təsir göstərmiş peyğəmbərimizin bu fikirləri alim zəkasına ilahi qiymətdən söz açır. Belə zəka sahiblərindən biri - akademik Hüseyn Əhmədov pedaqoji fikir tariximizin ən parlaq çırağını yandırıb. Bu dahi alimin ömrünün 69 ili müəllimliklə, 65 ili isə elmi əsərlərlə tarixləşib. Bu da ibrətamiz, keşməkeşli və nəsillərə örnək ola biləcək fenomen bir ömrün nağıl səhifələri...

Tarixin hansı anındasa Cənubi Azərbaycanın Sulduz mahalından Qərbi Azərbaycanın Toxluca kəndinə bir neçə ailə köçür. Və heç kim bilmir ki, gələcəkdə bu ailələrin birində bir uşaq doğulacaq, alim kimi həm Cənubi, həm Qərbi, həm də Şimali Azərbaycana şöhrət olacaq.

Budur, həmin uşaq 1926-cı il iyul ayının 17-də Mustafa kişi ilə Mələk xanımın ailəsində dünyaya göz açır. Ata oğluna imam Hüseynin adını verir. 1932-ci ildə Hüseyn birinci sinfə qədəm qoyur.

1936-cı ildə Hüseynin ailəsi Göykilsə kəndinə köçür. Burada o, 7-ci sinfi bitirib, 1940-cı ildə təhsilini qonşu Kapkan məktəbinin 8-ci sinfində davam etdirir. Hər gün 9-10 km yol qət edir, hər əzaba dözür, 3 ay qışı məktəbin nəzdindəki internatda qalmalı olur. Ağır günlər yaşayır, dərsini əla oxuyur.

1941-ci il. Böyük Vətən müharibəsi başladı. Hüseynin atası İrəvan yaxınlığında düşmən tankları əleyhinə xəndək və səngər qazmağa səfərbər edilir. Ata burada xəstələnir, həmin il oktyabr ayında vəfat edir. Hüseyn 9-cu sinifdə təhsilini yarımçıq qoyur. Əvvəlcə kəndin mal-qarasını otarır. Kolxozda naryadçik, kənd sovetində katib işləyir, bir müddət səngər qazılmasında iştirak edir.

1943-cü il. Qardaşları müharibədə yaralanıb tərxis olunur. Kəndə qayıdır. Ailə yenidən doğma Toxlucaya köçür. Hüseyn burada 9-cu sinfi bitirir və 10-cu sinfə dərsə yeni başlayanda təhsili yenə yarımçıq qalır. Bu vaxt möcüzə baş verir. Siniflərdə əla oxuduğunu və müəllim kadrlarının çatışmadığı nəzərə alınır. Hüseyn doğma kənd məktəblərinə ibtidai sinif və V-X siniflərdə erməni dili müəllimi vəzifəsinə təyin olunur.

Müəllim kimi ona ayda 2 pud taxıl verilir. Ailə bununla birtəhər dolanır.

1946-cı il. Hüseyn müəllimlikdən azad olunur. 2 ay mağazada işləyir, sonra biçinə gedir. Bir gün Cəlil kişinin doğma səsi sanki onu yuxudan ayıldır:

"Sən müəllimsən, get müəllimliyini davam etdir. Nə vaxta qədər mənimlə biçin biçəcəksən?".

Bir neçə gündən sonra Qaraqoyunlu dərəsi ilə Qazağa 3 gənc yola düşür. Onlar iki gün yol gedir. Qazax Pedaqoji Texnikumuna çatırlar. Direktor Gülzar xanıma məqsədlərini deyirlər. Direktorun "2-ci kursa imtahansız, 3- cü kursa imtahanla" fikri ilə razılaşmayıb, Gəncə Pedaqoji Texnikumuna yollanırlar. Burada da eyni vəziyyət.

İmtahanlar başlayır. Hüseyn 13 fəndən fərq imtahanı verib, 3-cü kursa qəbul olur.

Hüseyn Kirovabad Pedaqoji məktəbini əla qiymətlərlə, qırmızı diplomla başa vurur. Dövlət imtahan komissiyası təhsilini davam etdirmək üçün Hüseyni BDU-ya göndərməyi qərara alır.

Hüseyn 2 yol ayrıcındadır. Anası Mələk xanım, qardaşı Hidayət onu işləməyə və evlənməyə səsləyir. Hüseyni insititut çəkir. Bakının isə nə yolunu tanıyır, nə də bu şəhərdə ona tanış və ərki çatan bir ünvan var. 1947-ci ilin yayı... Hüseyn evə, mal-qaraya tədarük görüb Gəncəyə qayıdır. Pedaqoji institutun rektoru Hacıbala müəllimin qəbuluna gəlir. Vəziyyəti danışır, onun köməyi ilə BDU Gəncə Pedaqoji İnstitutu ilə əvəz olunur. Hüseyn sənədlərini tarix fakültəsinə verir. Bir il əvvəl institutun auditoriyalarında dolaşan bir xəbəri-"Pedaqoji texnikumda oxuyan bir tələbə - Hüseyn Əhmədov tarixi institut tələbələrindən yaxşı bilir" xəbərini xatırlayır. Dövlət imtahanı zamanı institutun tarix müəlliminin bir neçə tələbə ilə texnikuma gəlməsi, imtahanda Hüseynin bilet çəkib fikirləşmədən həm biletin, həm də tələbələrin suallarına cavab verməsi gözləri önündən kinolenti kimi keçir. Beynində də bu fikirlər dolaşa - dolaşa kəndə qayıdır. Ailənin qış azuqəsini yığıb, Gəncəyə gəlir və dərsə başlayır.

2-ci kursdan ona "Lenin komsomolu" təqaüdü verilir.

1951-ci il. Hüseyn "Lenin komsomolu" adlı təqaüdlə institutu bitirir. Gənc kadr kimi institutun tarix fakültəsinə baş laborant saxlanılır. Növbəti qəbul başlayır. Hüseyn qəbul komissiyasına məsul katib təyin edilir, eyni vaxtda Toxuculuq və pambıqçılıq texnikumlarında dərs deyir.

Gəncədən uzaqlarda-Toxluca kəndinin tarixinə isə bir səhifə yazılır. 55 il ötəcək, bu tarix böyük alimin "Seçilmiş pedaqoji əsərləri"nin XII cildində belə bir səmimiyyətlə ifadə olunacaq: "Kəndimizdən ilk ali təhsil almaq mənə, mən yetim Hüseynə nəsib oldu". Və onu da yazacaq ki, "ali təhsilim daşlı - kəsəkli yollardan keçib".

Hüseyn institutda 1 il işləyir. İnstitut, texnikum və Gəncə həyatı onun dünyagörüşünün formalaşmasında misilsiz rol oynayır. Dahi Nizaminin "Qüvvət elmdədir" tövsiyəsi onu elmə çağırır. Fikrini anasına və institutun direktoruna bildirir. Maddi vəziyyətinin indi-indi düzəldiyini deyən ana razı olmur. Direktor isə sənədləri hazırlayır.

1952-ci ildi. Hüseyn Bakıya gəlib ADPİnun aspiranturasına ərizə verir. Bir yer uğrunda 7 nəfər mübarizə aparır. Hüseyn hər imtahan günü qatarla Bakıya gəlib imtahan verir və axşam Gəncəyə qayıdır. Beləliklə, bütün imtahanlardan müvəffəq qiymət alan Hüseyn aspiranturaya qəbul olur. Və gələcəkdə zərbməsələ çevriləcək - "Gəncədən gedirəm, yüküm kitabdır" mənəvi sərvətini götürüb Bakıya köçür.

1955-ci il. Hüseyn pedaqogika ixtisası üzrə aspiranturanın əyani şöbəsini bitirir. Və həmin ildən alim kimi dövri mətbuata çıxır. "Azərbaycan məktəbi" jurnalında 2 samballı məqaləsi çap olunur.

1956-cı il... İnstitut komsomol komitəsinin birinci katibi seçilir. İki il bu vəzifədə çalışır.

1957-58-ci illər... Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda kiçik elmi işçi vəzifəsində işləyir və burada uğurla müdafiə edib alimlik dərəcəsi alır. Dissertasiyanı akademik Makolevski, professor Kamarovski, M.Muradxanov və dosent Mustafayev yüksək qiymətləndirir.

O, N.Nərimanovun pedaqoji fikirlərini tədqiq etməyə başlayır.

1958-ci il. Hüseyn ADPİ-nun pedaqogika kafedrasında assistent kimi fəaliyyət göstərir, iki il sonra həmin kafedrada baş müəllim olur.

1959-cu ildə N.Nərimanovun pedaqoji fəaliyyətinin "Həştərxan dövrü" məqaləsini "Azərbaycan məktəbi" jurnalında dərc etdirir.

1960-cı il. Onun ilk kitabı işıq üzü görür.

1964-cü il. Hüseyn dosent seçilir.

1968-ci il... Doktorluq dissertasiyası müdafiə etmək üçün iki il müddətinə baş elmi işçi vəzifəsinə keçirilir. Ermənistanda 4, Gürcüstanda 7 nəfərin tədqiq etdiyi XIX əsr kimi olduqca mürəkkəb və zəngin bir dovrü - ümumiyyətlə, Azərbaycanda bütün tiplərdən olan məktəb tarixinin 100 illik bir dövrünü doktorluq dissertasiyası mövzusu təsdiq edib verirlər Hüseyn müəllimə. Moskva, Leninqrad, Bakı, Tiflis, İrəvan, Həştərxan dövlət arxivlərində, mərkəzi kitabxanaların, elmi müəssisələrin arxivlərində minlərlə sənədi tədqiq edir, elmi təhlildən keçirir.

Azərbaycan pedaqoji ictimaiyyəti yaxşı bilirdi ki, Hüseyn müəllim bu ağır işin öhdəsindən uğurla gələcək. Axı Hüseyn Əhmədov 1967, 68, 70, 71-ci illərdə "XIX əsrin əvvəllərində Azərbaycan xalq maarifi və məktəbi", "Azərbaycanda ilk qəza məktəbləri", "XIX əsrin 40-cı illərində "Azərbaycanda xalq maarifi və məktəb", "Ana dili dərsliyi tərtibində ilk mərhələ", "Azərbaycanda kənd ümumtəhsil məktəbləri tarixindən", "Azərbaycanda orta ümumtəhsil məktəbləri tarixindən", "Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi tarixinə dair", "XIX əsrdə Azərbaycan dilində dərslik və tədris vəsaitləri tərtibi tarixindən", "Azərbaycan məktəbləri XIX əsrin ortalarında", "Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi və inkişafı", "N.Nərimanovun maarifçilik fəaliyyəti və pedaqoji fikirləri", "Azərbaycanda sənət məktəblərinin təşkili tarixinə dair", habelə "Ana dili təlimi ideyasının meydana gəlməsi və inkişafı" kimi samballı əsərlər ortaya qoymuşdur.

H.Əhmədov doktorluq işini tamamlayır. SSRİ PEA-nın Elmi-Tədqiqat Ümumi Pedaqogika İnstitutuna təqdim edir və gözləyir. Bir müddət keçir. Vəziyyətlə professor Əhməd Seyidov maraqlanır. SSRİ ali və orta ixtisas təhsili naziri Yelyutinə belə bir məktub yazır: "Əhmədovun doktorluq dissertasiyası Azərbaycan məktəb və pedaqoji fikir tarixi ilə bağlıdır. Buna görə də bu dissertasiyanın Azərbaycan elmi-pedaqoji ictimaiyyəti qarşısında müdafiə edilməsi daha məqsədə müvafiqdir". Bununla da, bu ixtisas üzrə ilk dəfə doktorluq işinin Azərbaycanda müdafiə olunmasına icazə verilir ki, bu da Hüseynin bəxtinə düşür.

Hüseyn Əhmədov akademik Mehdi Mehdizadənin rəhbərliyi ilə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Onun müdafiəsinə rəsmi opponent kimi Moskvadan akademik Qançarov gəlir, müdafiədən məmnun qalır və bir neçə il sonra nəşr ediləcək "XIX əsr Azərbaycan məktəbi" monoqrafiyası ilə Hüseyn müəllim "sağlığında özünə abidə ucaldır". Bu fundamental əsərlərlə Hüseyn Əhmədov Azərbaycan pedaqoji fikir məktəbinin əsasını qoyub və bu elmə öz möhürünü vurub.

1972-ci il. Milli və pedaqoji fikrimizin böyük tədqiqatçısı "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair", "Pedaqogika qanun və qanunauyğunluq", "Uşinskinin pedaqoji ideyalarının Azərbaycanda yayılmasına dair", "SSRİ xalqlarının mədəni irsinə dair" əsərləri ilə dünya və pedaqoji fikir tarixinin də mahir tədqiqatçısı olduğunu təsdiq edib, ittifaqda böyük alim olduğunu təsdiq edir.

1973-cü il. Hüseyn müəllim Azərbaycan SSRİ-nin "Qabaqcıl maarif xadimi" adına layiq görülür.

1974-cü il. H.Əhmədov İnstitut elmi şurasının üzvü və pedaqoji institutda "Orta məktəb müəllimlərinin ixtisas artırma fakültəsi"nin dekanı seçilir. Üç il bu vəzifədə işləyir. Həmin illərdə o, 9 sanballı elmi məqalə yazır, müəllif kollektivinin iştirakı ilə "Pedaqogikaya giriş" kitabını nəşr etdirir.

1975-ci il. Hüseyn müəllim "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi kursu"nun yaradıcısı kimi Naxçıvan Dövlət Pedaqoji İnstitutuna dəvət olunur. İki il burada mühazirə oxuyur, yaratdığı məktəbi sınaqdan keçirir və təsdiq edir.

1977-ci il. SSRİ Ali Attestasiya komissiyası Hüseyn Əhmədova "professor" adı verir, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi isə onu "SSRİ maarif əlaçısı" döş nişanı ilə təltif edir. Elə həmin il Hüseyn müəllim müsabiqə yolu ilə ADPİ-nin Ümumi pedaqogika kafedrasının müdiri seçilir. 30 il keçir. "Uzunömürlü kafedra müdiri", "ustad müəllim", "müəllimlər müəllimi" fövqünə yüksəlir.

1980-ci il. Hüseyn Əhmədov Azərbaycan SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında Pedaqoji Elmlər üzrə Elmi-Metodiki Şuranın üzvü təsdiq olunur. Azərbaycan SSR Bilik Cəmiyyəti idarə heyətinin üzvü seçilir, pedaqogika-psixologiya bölməsinin sədri təsdiq edilir. Elə həmin il sayca 60-cı olan "Ana dili dərsliyi problemində ilk addım" əsərini yazır.

1981-ci il. Azərbaycan məktəb və pedaqoji fikir tarixindən oxuduğu xüsusi kurs üzrə müsbət iş təcrübəsi SSRİ Maarif Nazirliyinin Elmi-Metodik Şurası tərəfindən bəyənilir və bu təcrübənin İttifaqda yayılması məsləhət bilinir. Elə həmin il "Azərbaycan SSR Əməkdar ali məktəb işçisi" fəxri adına layiq görülür. 1981-82-ci illərdə 8 əsər yazır. 1983-cü ildə isə " Azərbaycan məktəb və pedaqoji fikir tarixi"ndən xüsusi kurs üzrə mühazirə oxumaq üçün Tbilisi Pedaqoji İnstitutuna dəvət olunur.

1984-85-ci illərdə Hüseyn müəllimin 10 əsərdə fərdi imzası var. Dörd əsərin isə həmmüəllifidir.

1985-ci il. Hüseyn Əhmədov SSRİ Pedaqoji Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə yaradılan "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi problemi üzrə elmi şura"nın üzvlüyünə təsdiq olunur.

1986-cı il. SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Sovetinin qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ixtisaslaşdırılmış müdafiə şurası sədrinin müavini seçilir.

1990-cı il. Dekabr ayı... SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvlüyünə seçilmək üçün 159 alim mübarizə aparır. 39 nəfərin sənədi qəbul olunur. 39 nəfərdən isə 6-sı seçilir. Burada Hüseyn müəllim 2-ci yer tutur və elə 1-ci turda müxbir üzvlüyünə qəbul edilir. Akademiyaya seçilən 4 azərbaycanlıdan biri kimi Hüseyn Əhmədov pedaqoji fikir tariximizə yeni səhifə yazır.

1993-cü il. Böyük alimin həyatında üç əlamətdar hadisə yadda qalır. Aprelin 30-da müsabiqə yolu ilə 4-cü dəfə ADPU-nun "Ümumi pedaqogika" kafedrasının müdiri, may ayında Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, iyul ayında isə Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki seçilir. Və pedaqoji fikir tariximizi "Pedaqoji peşəyönümlü: tarixilik və müasirlik", "Pedaqoji kadr hazırlığında mühüm amil" kimi sanballı əsərlə zənginləşdirir.

1998-ci il. Alimin beynəlxalq miqyasda təsdiqinin daha bir ünvanı. Hüseyn müəllim elmə-pedaqoji sahədəki yaradıcılıq uğurlarına, elmi-pedaqoji kadr hazırlığındakı xidmətinə görə Beynəlxalq Pedaqoji Akademiyanın Y.A.Komenski adına "Böyük Qızıl medalı" ilə təltif olunur. Bu mükafat haqda Hüseyn müəllim alim sadəliyi ilə yazır: "Yan Amos Komenski adına Böyük Qızıl Medalla təltif edilməyim mənim pedaqoji elmlər sahəsində qazandığım az-çox uğurlarımın nəticəsi idi". Özünə belə sadəliklə yanaşan alim elə bu ildə oxuculara Azərbaycan maarif, elm və mədəniyyəti haqda 3 sanballı məqalə təqdim edir. Həmin il yazdığı iki məqaləyə "Heydər Hüseynovun Azərbaycanda maarif, elm və mədəniyyətin inkişafındakı xidmətləri", "Qərbi Azərbaycan ziyalılarının ümumi Azərbaycan maarifi, elm və mədəniyyətinin inkişafındakı tarixi xidmətləri" məqalələrinə nəzər yetirmək kifayətdir ki, onun tədqiqat arealının genişləndiyini təsəvvür etmək mümkün olsun.

1999-cu il 29 dekabr.

Pedaqoji fikir tariximizin azman tədqiqatçısı elə bu il Rusiya Təhsil Akademiyasına həqiqi üzv seçilir və 1998-ci ildə aldığı "Qızıl medal"ın təsadüfi olmadığı təsdiq olunur. 1999-cu il təqvimində akademik oxucularına 1 siyasi, 4 pedaqoji məqalə təqdim edir. "Azərbaycan Respublikasının konstitusiyası demokratik prinsipləri özündə əks etdirən tarixi sənəddir" elmi əsəri onun ensiklopedik alim zəkasını təsdiq edir.

2000-ci il. "N.Nərimanovun pedaqoji fikirləri", "XIX əsr Azərbaycan məktəbi" monoqrafiyaları yenidən işlənir, təkmilləşdirilir və nəşr edilir. İctimai-pedaqoji tariximizə və fikrimizə aid 5 məqalə yazılır. Alimin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 55 ili qeyd olunur. Yaradıcılığı ilə bağlı yüzlərlə məqalə yazılır.

2001-ci il. Akademikin iki dərs vəsaiti, "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" I hissə, "İdarəetmənin pedaqogika və psixologiyası" kitabları nəşr olunur. V cildlik "pedaqoji əsərləri"nin I, III cildləri tələbələrin və geniş oxucu kütləsinin ixtiyarına verilir.

2002-2003-cü illər. Akademikin "Seçilmiş pedaqoji əsərləri"nin daha 3 cildi nəşr edilir. "XIX əsr Azərbaycan pedaqoji elminin korifeyi", "Heydər Əliyev və müstəqil Azərbaycanın təhsil siyasəti" kimi sanballı məqalələr yazılır.

2004-cü il. Hüseyn müəllim müsabiqə yolu ilə 5-ci dəfə ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri seçilir. Bu, respublikamızın pedaqoji həyatında nadir hadisə kimi qarşılanır.

N.Nərimanovun pedaqoji fəaliyyəti, idarəetmənin pedaqogika və psixologiyası, millimənəvi dəyərlərimiz, qloballaşma problemi, ölkə Prezidentinin siyasi fəaliyyəti, K.D.Uşinskinin 180 illik yubileyi, Qərbi və Cənubi Azərbaycanın məktəb tarixinə dair akademikin 9 məqaləsi və 2 kitabı işıq üzü görür.

2005-ci il. Noyabr ayında Nalçik şəhərində "Təhsildə inteqrasiya, problemlər, perspektivlər", dekabr ayında isə Moskvada "MDB ölkələrində təhsilin inkişafı problemi"nə həsr olunmuş Beynəlxalq konfransda məruzə ilə çıxış edir. "Yüksək vətəndaşlıq mövqeyindən 15 iyundan başlayan milli inkişaf strategiyası" məqaləsini yazır.

2005-ci ilin sonu. Ankaradan xoş xəbər gəlir. Hüseyn müəllim Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyası tərəfindən "Türk dünyasına Hizmet" (Xidmət) "Qızıl Medalı" ilə təltif edilir.

2006-cı il. "El gücü" Beynəlxalq Humanitar Assosiasiyasının qərarı ilə Hüseyn Əhmədov Heydər Əliyev adına Əsrin Akademiyasına həqiqi üzv seçilir. "Unikal həyat və yaradıcılıq fəaliyyətinə görə" akademikin əsərləri Amerika Biblioqrafiya İnstitutunun "Beynəlxalq mütəxəssislər və Ekspertlər" haqqında məlumat kitabına daxil edilir. Alimin 12 cilddə "Seçilmiş pedaqoji əsərləri"nin nəşrinə başlanır.

2007-ci ilin yazı. Hüseyn müəllimin həyatında daha bir qızıl səhifə. O, Rusiya Federasiyası Pedaqoji və Sosial Elmlər Akademiyasına həqiqi üzv seçilir və üçqat akademik olur.

2007-ci ilin yayı. Dünya və rus pedaqogikasının mütərəqqi ideyalarının geniş tədqiqi və öyrənilməsi sahəsindəki əvəzsiz xidmətləri, Rusiya - Azərbaycan elmi-pedaqoji və ictimai əlaqələrinin inkişafındakı misilsiz rolu və 80 illik yubileyi ilə əlaqədar akademik Hüseyn Əhmədov Rusiya Federasiyası Təhsil və Elm Nazirliyi tərəfindən K.D.Uşinski adına "Qızıl medal" ilə təltif olunur. Və Rusiya Təhsil Akademiyasının fəxri fərmanına layiq görülür. Hüseyn müəllim Uşinski medalına layiq görülən ilk azərbaycanlı alimdir.

Elmi fəaliyyəti dövründə 500 elmi əsər yazmış bu alimin tədqiqatları arasında bir neçə ömrə sığmayan narahat günlər, yuxusuz aylar, illər dayanır. Bu böyük insan gələcəyini görüb və gələcəkdə yaşamaq haqqı qazanıb.

65 illik tədqiqat, axtarış yolunu təhlil edəndə öncədən yəqin edirsən ki, Toxluca məktəbinə qədəm qoyan bu uşaq - islam məktəbi yaradan Əhmədin nəvəsi - elmin "daşlı-kəsəkli yollarından keçib şöhrəti Azərbaycana və dünyaya yayılan öz məktəbini yaradıb. O, dəmir iradəsi, kövrək qəlbi ilə XIX-XX əsr məktəb tariximizi fenomen araşdırıcı kimi tədqiq edib.

Hüseyn müəllim 65 illik alim ömrünü 30 il qabaqlayıb. Yaradıcılıq dolu 1 əsri yola salıb. Tədqiqatlarının, araşdırmalarının fasiləsiz təqvimi 81 ili əhatə edir. 65 illik tədqiqatlarında 90 ilin işini görüb Hüseyn müəllim.

Fikirləşirsən ki, akademik Moskvada nəşr olunan "Azərbaycan Pedaqoji fikir antalogiyası" fundamental əsərinin, "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi" oçerklərinin, "Rus pedaqoji ensiklopediyası"nın və 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın əsas müəlliflərindən biridir, onda biz gələcək əsrlərin çox-çox dərinliklərinə gedəcək bir dahi alimlə müasir olmaq xoşbəxtliyindən qürur duymaya bilmirik. Moskva, Leninqrad, Ulyanovsk, Nijni-Novqorod, Penza, Riqa, Daşkənd, Tiflis, Səmərqənddə keçirilən elmi-praktik konfranslarda çıxışları Hüseyn müəllimin milli, milli olduğu qədər də dünyəvi alim olduğunu təsdiq edir.

Milli pedaqoji tariximizin elə bir səhifəsi yoxdur ki, onun qartal baxışından yayınsın. "Maarifçi, görkəmli pedaqoq, rus və Azərbaycan xalqları arasında dostluğun carçısı A.O.Çernyayevskinin tarixi xidmətlərini nəzərə alaraq alimin diqqəti və köməyi ilə 125 illiyi münasibətilə Çernyayevskinin "Vətən dili" kitabı çap edilib, oxucuların ixtiyarına verildi. Bax, buradaca adamın qəlbindən bir səda keçir. Bəli, "Zər qədrini zərgər bilər".

Əsərlərini oxuyub, söhbətlərini dinlədikcə fikirləşirsən ki, bu alim sanki göylərdən gəlib. Axtarışlarla, tədqiqatlarla, ziya ilə dolu 96 ilin bir qütbündəki alim ömrünü simurq quşu nağıllara aparır, bir qütbündəki ömür isə gözümüzün qarşısında canlı heykələ dönür. Fərəh hissi keçirirsən ki, bu ömür bizim milli sərvətimizdir!

**Haşiyə:** Ailə ocağı "Hüseyn Sayalı" ocağında dörd övlad böyüyüb. Oğlu Hümeyir və qızı Mehriban atanın yolunu davam etdirir. Mustafa hüquqşünas, Reyhan həkimdi. Həyat yoldaşı haqda böyük səmimiyyətlə yazır: "Mən mən olmazdım, məni mən eləyən olmasaydı". Azərbaycan pedaqoji ədəbiyyatımızın qızıl fonduna daxil olmuş əsərlərindən birini "XIX əsr Azərbaycan məktəbi" kitabının isə doktorluq dissertasiyasında ona mənəvi və maddi dayaq duran və dünyadan vaxtsız köçən qaynı Fazil Hüseynovun xatirəsinə həsr etməsi yetirmələrinin sərrast sözləri ilə desək, akademikin həm elmin uca zirvəsində, həm də "insanlığın mötəbər kürsüsündə" olduğunu təsdiq edir.

Göydən bir ömür düşdü, alim ömrü. Böyük yaradan ona "Sənə əsərlərin qədər ömür, elmin çətin yolunu keçsən məktəb yaratmaq nəsib edəcəyəm" - dedi. Bu ömür xalqına və bəşəriyyətə fədakarlıqla xidmətə başladı. Elmin 40 sehirli qapısını açdı. Milyonların qəlbində işığa, beynində ziyaya döndü. Milli təhsilimizin pedaqoji fikir məktəbini yaratdı.

**Qənbər AĞAYEV,**
*SSRİ Teleradio media əlaçısı,*
*"Qızıl qələm" media mükafatı laureatı,*
*Əməkdar jurnalist*

# Milli təhsil tariximizə dəyərli töhfə




Vətən tarixi ilə bağlı araşdırmalar aparmaq ilk növbədə milli dəyərlərin öyrənilməsi, gələcək nəslə çatdırılması və təbliği baxımından çox əhəmiyyətlidir. Tarixi tədqiqatların nəticələrinin milli mənlik şüurunun formalaşdırılması vasitəsi kimi çıxış etməsi isə dəyər baxımından xüsusilə qiymətlidir. Bu gün belə tədqiqat əsərlərinin yazılması mühüm aktuallıq kəsb edir. Belə tədqiqat əsərlərindən biri də təhsil tarixi sahəsində araşdırmaları ilə xüsusilə seçilən filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin "İrəvan Müəllimlər Seminariyası" adlı əsəridir. Monoqrafik səciyyəli kitab bu yaxınlarda "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur. Üç fəsildən ibarət olan bu kitabda XIX yüzilliyin ikinci yarısı, XX yüzilliyin birinci yarısında İrəvan Azərbaycan türklərinin ictimai-siyasi və mənəvi vəziyyəti, İrəvan Müəllimlər Seminariyasının yaranması, fəaliyyəti, onun xələfi olan İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin (İrəvan Türk Pedaqoji Texnikumu) təhsil tarixində yeri və rolu məsələlərindən bəhs edilir. Tarixdən məlumdur ki, İrəvan Azərbaycanın elm, təhsil, mədəniyyət mərkəzi kimi həmişə diqqəti cəlb etmişdir. Bu bölgə qədim zamanlardan müasir dövrədək Azərbaycan tarixinin görkəmli simalarını yetişdirmiş, milli azadlıq, milli maarifçilik tarixində silinməz izlər qoymuşdur. Bu bölgə də Azərbaycanın digər bölgələri kimi qədim oğuz yurdu, türk tayfalarının vətənidir. Tarixi mənbələrdə bu barədə zəngin məlumatlar vardır.

Qeyd edək ki, XIX yüzillikdə çar Rusiyası Azərbaycanın şimal hissəsini işğal edəndən sonra İrəvan bölgəsi də müstəmləkə əsarətinə düşdü, burada çarizmə xas olan idarəçilik sistemi formalaşmağa başladı. Belə bir dövrdə çar hökuməti təhsil sistemini də müstəmləkəçilik qaydalarına uyğun təşkil etdi. Qəza məktəbləri, sonralar şəhər məktəbləri, progimnaziya və gimnaziyalar açılsa da, onların ali məqsədi çar məmurları yetişdirmək, türk-müsəlman xalqlarını xristianlaşdırmaq, ruslaşdırmaq idi. Ona görə də Avropa tipli məktəblər kimi adları çəkilən bu təhsil ocaqlarında oxumaq üçün ilk növbədə rus dilini bilmək, rus adət-ənənələrini mənimsəmək, onlara əməl etmək, tədricən xristian ruhunun daşıyıcısına çevrilmək tələb olunurdu. Qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının yaranması və fəaliyyəti də məhz bu amillərə əsaslanırdı. Tədqiqatçı alim Cəlal Allahverdiyev öz araşdırmalarında problemin bu aspektlərini də diqqətdə saxlamış və ilk növbədə XIX yüzilliyin ikinci yarısında çar Rusiyasında mövcud ictimai-siyasi mənzərəni əks etdirmiş, seminariyanın yaranma zəruriliyini, burada azərbaycanlıların təhsili üçün yaradılan süni çətinlikləri, milli ziyalıların, maarifçi xadimlərin fədakarlıqlarını mənbə materialları əsasında şərh etmişdir.

Tarixi mənbələr göstərir ki, XIX yüzilliyin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərindən etibarən İran və Osmanlı ərazisindən, eyni zamanda dünyanın digər ölkələrindən İrəvana çoxlu sayda erməni ailələri köçürülməyə başlandı. Təkcə 1828-1830-cu illərdə İrandan 40 min, Osmanlı imperiyasından isə 90 min erməni Cənubi Qafqaza, Şimali Azərbaycana köçürülmüşdü. Çar hökuməti erməniləri Cənubi Qafqaza köçürməklə özlərinin dayaq dəstələrini möhkəmləndirmək, bu bölgədə xristianlaşdırma siyasətinin daha sürətlə aparılmasına inanırdı. İrəvan Müəllimlər Seminariyasında təhsilalanlara münasibətdə də bu ayrı-seçkilik aşkar hiss olunurdu. Ona görə də burada milli ruhlu insanlar təqib olunur, onların təhsil müəssisələrində çalışmasında, tədris fəaliyyətində çox çətinliklər meydana gəlirdi.

Seminariya fəaliyyətə başlayarkən burada Azərbaycan şöbəsinin yaradılmasının nəzərdə tutulması barədə mənbələrdə məlumata rast gəlinməmişdir. Lakin burada Azərbaycan dilindən və ilahiyyatdan (şəriətdən) dərs deyən Axund Molla Məhəmmədbağır Qazızadənin səyi nəticəsində Azərbaycan mühiti, Azərbaycan şöbəsi formalaşmışdı. Axund Molla Məhəmmədbağır Qazızadə azərbaycanlı uşaqları himayə edir, onların təhsil alması və gələcəkdə müəllim kimi fəaliyyət göstərmələri üçün hər cür şərait yaradırdı. Tədqiqatçı alim Cəlal Allahverdiyev tarixi sənədlər əsasında İrəvan Müəllimlər Seminariyasının fəaliyyətini təhlil edərkən burada çalışan azərbaycanlı müəllimlərin gördükləri işi, onların milli maarifçilik mövqeyindən çıxışlarını, milli dərslik yaradıcılığı sahəsindəki uğurlarını qeyd edir, ən çətin şəraitdə milli şüur daşıyıcıları kimi dönməz, bütöv, torpağa, xalqa bağlı şəxsiyyətlərin yetkinliyini ön plana çəkir. Bu baxımdan, kitabda əksini tapmış materiallar sadəcə adi tarix deyil. Bu, qaranlıqları aydınlığa çıxaran, müstəmləkəçilik əsarətinə boyun əyməyən, milli varlığının əzəmətini qoruyan, hər birinin həyatı qəhrəmanlıqlarla dolu olan şəxsiyyətlərin tarixidir. Bu, milli mücadilə tarixi, milli azadlığın yol xəritəsidir.

Mənbələrdən aydın olur ki, Axund Molla Məhəmmədbağır Qazızadə Nəcəf şəhərində ali dini təhsil almışdı. O, 1893-cü ildə İrəvan Quberniyasının Ruhani Məclisinin sədri seçilmiş və ömrünün sonuna kimi (1911) seminariyadakı vəzifələrini icra etməklə bərabər bu səlahiyyətlərinin də öhdəsindən ləyaqətlə gəlmişdir. Ruhani Məclisinin sədri əslində quberniyada türk-müsəlman əhalisinin dini rəhbəri kimi İrəvan bölgəsinin ağsaqqalı idi. Çox böyük nüfuza malik olan A.M.Qazızadə burada yaşayan azərbaycanlıların problemlərini həmişə diqqətdə saxlamış, bir neçə dəfə imperiyanın paytaxtında müəyyən məsələlərlə bağlı fikirlərini birbaşa çar hökumətinə çatdırmışdı. Tarixi faktlar göstərir ki, seminariyaya 1897-ci ilin sonlarında direktor təyin edilən Mixail Alekseyeviç Miropiyev burada türk-müsəlman uşaqlarına qarşı xüsusilə amansız idi. Mürtəce baxışlı, şövinist mövqeli bu insan azərbaycanlıların seminariyaya qəbul olunmasına mane olur və burada oxuyan azərbaycanlıların da təhsil müəssisəsindən uzaqlaşdırılmasına çalışırdı. Məhz belə bir şəraitdə A.M.Qazızadə şəxsi nüfuzundan istifadə edərək yaranan problemləri həll edir, öz sözünü ən yuxarı dairələrə çatdıra bilir, yaranmış problemlərin əsasən həllinə nail olurdu.

Tədqiqatçı alim Cəlal Allahverdiyev İrəvan Müəllimlər Seminariyasının fəaliyyətindən bəhs edərkən burada təhsilin struktur və məzmun məsələlərinin də mahiyyətinə aydınlıq gətirir, seminariyanın nəzdindəki ibtidai məktəbdən, hazırlıq kurslarından söz açır, onların iş prinsipini izah edir. Seminariyaya daxil olmaq üçün hazırlıq qruplarının təşkilinə, verilən tələblərə əməl etməyin vacibliyini qeyd etməklə çarizmin bir daha müstəmləkəçi siyasətinin xarakterini ön plana çəkir.

Kitabda İrəvan Müəllimlər Seminariyasının XX yüzilliyin əvvəllərində, Birinci dünya müharibəsi dövründəki fəaliyyəti də geniş işıqlandırılmış, seminariyanın 1918-ci ildə bağlanma səbəbləri izah edilmişdir. Kitabın müəllifi həmin dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım hadisələrinə də münasibət bildirmiş, məkrli erməni siyasətinin nəticələrini diqqətə çatdırmışdır.

Məlumdur ki, 1924-cü ildə İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açılmışdır. Bu təhsil müəssisəsi 1949-cu ilədək çox çətin şəraitdə fəaliyyət göstərsə də Azərbaycan təhsil tarixində böyük xidmətləri olmuşdur. 1940-cı illərin sonlarında azərbaycanlıların doğma yurdlarından deportasiyası zamanı bu təhsil müəssisəsi də Azərbaycana köçürülmüş, 1949-cu ildən 1972-ci ilədək Göygöl rayonunda (o zamankı Xanlar rayonu) fəaliyyət göstərmişdir. Bu məsələlər haqqında tədqiqatçı alim Cəlal Allahverdiyev geniş məlumat vermiş, mənbələrin təhlili əsasında müəllif mövqeyini əsaslandırmışdır.

Əsərdə Axund Molla Məhəmmədbağır Qazızadə ilə bərabər seminariyada təhsil almış və orada müəllim kimi fəaliyyət göstərmiş, eləcə də İrəvan təhsil mühitinin inkişafında, milli maarifçilik hərəkatının genişlənməsində böyük xidmətləri olan digər şəxsiyyətlər haqqında da məlumat verilmişdir. Onların hər birinin həyat və yaradıcılığı gənc nəsil üçün həmişə örnək, nümunə məktəbidir. Rəhim Xəlilov, İbadulla bəy Muğanlinski, Həmid bəy Şaxtaxtinski, Mirzə Cabbar Məmmədzadə, Həbib bəy Səlimov, Cəfərbəy Cəfərbəyov, Rəşid İsmayılov və başqalarının adları İrəvan təhsil mühitində formalaşmış Azərbaycanın görkəmli ziyalıları, maarif xadimləri kimi Vətən tarixinin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Bu gün belə şəxsiyyətlərin həyat yolunun, mənəvi irsinin dərindən öyrənilməsi olduqca vacibdir. Kitabda adıçəkilən belə şəxsiyyətlərdən biri də Yusif Bəhlul oğlu Yusifovdur. Burada onun adını qeyd etməyimiz heç də təsadüfi deyil. Yusif müəllim İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin məzunu (1946) olmuş, Sankt-Peterburq Dövlət Universitetində ali təhsil alaraq şərqşünaslıq elminin sirlərinə dərindən yiyələnmişdir. O, Şərq dilləri ilə yanaşı, alman, ingilis, fransız, rus dillərini də mükəmməl bilən bir alim kimi tanınırdı. Yusif müəllim eyni zamanda qədim şumer, akkad, elam dillərini də yaxşı bilirdi. O, Azərbaycan tarix elminin ən görkəmli nümayəndələrindən biri kimi çoxşaxəli elmi, pedaqoji fəaliyyəti ilə həmişə hörmətlə yad edilir. Biz Azərbaycan dövlətçilik tarixinin ən mühüm problemlərini onun elmi əsərlərindən, onun mühazirələrindən, seminar dərslərindən öyrənmişik. Aratta, Lullubi, Kutilərin dövlətçilik tariximizdə yeri və rolu haqqında onun dəyərli tədqiqatları vardır. Uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi tarix kafedrasının müdiri olmuş, tarix elmləri doktoru, professor Yusif Yusifovun vətənə, dövlətə, millətə xidməti də bir örnəkdir. O, türklərin hələ ən qədim zamanlarda Qafqazda, Ön Asiyada, İkiçay arasında yaşadıqlarını, bu ərazilərin onların ana vətəni olduğunu elmi dəlillərlə sübut etmiş və Azərbaycan tarixinin konsepsiyasını yaratmışdır. Onun tədqiqatlarında irəli sürülən ideyalar xalqımızın qədim dövr tarixinin daha dərindən öyrənilməsi üçün istiqamətverici elmi mənbədir.

Tədqiqatçı alim Cəlal Allahverdiyevin bu baxımdan İrəvan maarifçiik hərəkatının görkəmli nümayəndələrinin, eyni zamanda onların xələfləri, varisləri olan böyük şəxsiyyətlərin həyat və fəaliyyətinə dair araşdırmalar aparması təqdirəlayiqdir. Onun tədqiqatlarında İrəvan təhsil mühiti probleminə kompleks yanaşılmış, təhsil mühiti ümummilli, bütöv Azərbaycan kontekstində öyrənilmişdir. Burada Azərbaycanın digər bölgələri ilə İrəvan təhsil mühitinin sıx bağlılığı, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Bəkir Çobanzadə və başqaları ilə yaradıcılıq əlaqələri də öyrənilmiş, ümumi azərbaycançılıq ideyası qabarıq şəkildə verilmiş, bu da tədqiqatın səciyyəvi xüsusiyyətlərindən biri kimi qeyd edilə bilər.

Elmi araşdırmalar göstərir ki, İrəvan bölgəsində Rusiyanın müstəmləkəçiliyi şəraitində türk-müsəlman əhalisinin məktəbə, təhsilə cəlb olunması, azərbaycanlıların təhsil alması, işlə təmin olunması sahəsində çoxlu problemlər, çətinliklər olmuşdur. Çar hökuməti, onun yerlərdəki nümayəndələri azərbaycanlıların milli şüurunun formalaşmasının qarşısını almaq üçün bütün vasitələrdən istifadə etmişdir. Lakin nə qədər çətin olsa da o zaman milli maarifçilər xalqımızın ilk növbədə mənəvi keşiyində dayanaraq vətən övladlarının milli ruhunun formalaşması və inkişafında böyük rol oynamışlar. Cəlal Allaherdiyevin tədqiqat əsərində bu məsələlərin elmi təhlili verilmiş, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan milli təhsilinin inkişafında yeri və rolu faktlarla əsaslandırılmışdır.

**İntiqam CƏBRAYILOV,**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Respublikasının*
*Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi*
*və tarixi şöbəsinin müdiri*

# Təhsildə yeni yanaşmalar

## V Qrant müsabiqəsi qalibinin uğur hekayəsi

*Son illər təhsil sahəsində aparılan keyfiyyət dəyişikliklərinin əyani nümunəsi kimi inkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin həyata keçirilməsi müsbət ənənəyə çevrilib. Bu müsabiqələrin əsas hədəfi inkişaf əsaslı və innovativ xarakterli təşəbbüslərin dəstəklənməsi və həyata keçirilməsinə nail olunmasıdır. Qalib layihənin müəllifi "Azərbaycan müəllimi"nə öz hədəf və axtarışları barədə fikirlərini bölüşüb.*

## "Balakənli proqramçılar"



Balakən rayonu Amin Novruzov adına Humanitar və Texniki təmayüllü liseyin müəllimi Fatma Əfəndiyeva V Qrant müsabiqəsində "Balakənli proqramçılar" layihəsi ilə qalib gəlib.

Fatma Əfəndiyeva: Layihənin əsas məqsədi inkişaf etmiş ölkələrin müasir təhsil sisteminə əsaslanaraq şagirdlərimizin proqramçı kimi yetişmələrinə, müxtəlif sahələrdə uğur qazanmalarına və eyni zamanda ixtisas seçimində düzgün istiqamətlənmələrinə dəstək olmaqdır. Təhsil Nazirliyinin təşəbbüsü ilə keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə V Qrant müsabiqəsinin yaratdığı imkanlardan yararlanaraq, apardığım çoxlu sayda araşdırmalara və pedaqoji təcrübəmə əsaslanaraq topladığım materialları bir araya gətirdim. Belə bir nəticəyə gəldim ki, bu gun həyatımızın bütün sahələrində proqramlaşdırmaya və bu işi icra edəcək proqramçı mütəxəssislərə çox böyük ehtiyac var. Bu vacib məsələnin həlli isə məktəbdən başlayır. Proqramlaşdırma mühitində işləmək bacarığı olan hər bir istedadlı şagirdin xüsusi istedadının aşkara çıxarılması, onların daha da inkişaf etməsi, olimpiadalarda, elmi yarışlarda və müsabiqələrdə fəal iştirakına təkan vermək uçün təşkil edəcəyim təlimlər, eyni zamanda həmin şagirdlərin gələcəkdə savadlı mütəxəssis kimi yetişmələrinə və ixtisas seçimində çətinlik çəkməməsinə yardımçı olacaq.

Müasir dövrdə ölkənin inkişafı texniki tərəqqinin, kompüter və informasiya texnologiyalarının yüksək inkişaf səviyyəsindən asılıdır. Bu baxımdan dövlətimizin iqtisadi cəhətdən daha da güclənməsi üçün düşünən beyinə, istedadlı, zəkalı elm sahiblərinə həmişə ehtiyac var. Bu məqsədlə xüsusi qabiliyyəti və istedadı olan uşaqların aşkara çıxarılıb onlarla hərtərəfli iş aparılması məhz təhsil ocaqları qarşısında aktual məsələ kimi durur. Bu işdə məktəbin, müəllimin üzərinə mühüm vəzifələr düşür. Müşahidələr və araşdırmalar göstərir ki, məktəblərdə istedadlı uşaqlar az deyil. Sadəcə onları üzə çıxarmaq, düzgün istiqamətləndirmək lazımdır. Bütün bu sadaladıqlarımın rayonumuzda həyata keçməsinə layihəmin köməyilə nail olacağıma inandım. Düşündüm kı, həyata keçirəcəyim layihə sayəsində şagirdlər proqramlaşdırma dilində (mühitində) işləmək, məsələ həll etmək, kod yazmaq bacarığını düzgün istiqamətdə mənimsəyəcək və gələcəyin proqramçıları kimi özlərinin ilk və davamlı addımlarını atacaqlar. Maraqlı və rəngarəng məsələlər uşaqlarda proqramlaşdırmaya maraq yaratmaqla yanaşı onlarda bu sahəyə aid olan bilik və bacarıqların formalaşmasına da gətirib çıxaracaq. Layihənin istiqaməti sadədən mürəkkəbə doğru olduğundan şagirdlərdə zehni yorğunluğa gətirib çıxarmayacaq. Təcrübəli mütəxəssislərin köməyilə uşaqlar həm də bir-biri ilə fikir mübadiləsi qura biləcək, təhlillər aparacaqlar. Əyləncəli-düşündürücü məsələlər isə uşaqların öz yaşıdları, yaşca böyüklərlə də proqramlaşdırma mühitində ünsiyyət qurmalarına yardımçı olacaq. Proqramlaşdırma prosesində toplanılan təcrübə hər bir istedadlı şagirdin alqoritmik və məntiqi təfəkkürünün inkişafına kömək edəcək və xüsusilə bölgələrdə təhsil alan şagirdlərin olimpiadalarda, elmi yarışlarda gözəl və uğurlu nəticələr əldə etmələrinə gətirib çıxaracaq. Eyni zamanda gələcəyin bacarıqlı proqramçılarının təməli qoyulmuş olacaq. Həmçinin onlar gələcəkdə ixtisas seçimi ərəfəsində heç bir problemlə üzləşməyəcəklər.

Layihənin 4 aylıq icra müddəti ərzində istiqamət olaraq seçdiyim istedad və yaradıcılıq meyillərinə görə təhsilalanların kurikulumdan kənar bilik və bacarıqlarının formalaşdırılması (STEAM, veb dizayn, kodlaşdırma, 3 ölçülü çap, qrafik dizayn, animasiya, robototexnika, leqo, incəsənət, rəqs, ictimai nitq, debat, peşə seçimi, iqtisadi və maliyyə savadlılığı və s.) üzrə VII-XI sinif şagirdləri STEAM modulları (Micri:bit, sayt olaraq Macecode.microbit-.org) və pythone proqramlaşdırma dilinin köməyilə mükəmməl proqramlar qurmaq bacarığı əldə etdilər. Müsabiqə yolu ilə layihəyə cəlb etdiyim 20 şagird onlayn qaydada təlimlərə cəlb olunaraq, layihəyə cəlb etdiyim peşəkar mütəxəssislərin səyi nəticəsində proqramlaşdırmanin sirlərini dərindən öyrəndi. Seçilmiş şagirdlərlə keçirilən təlimlərdə ilk öncə mikrobit proqramı üzərindən proqram qurmaq yolları öyrədildi, daha sonra sadədən mürəkkəbə doğru istiqamətində işimiz Python proqramı üzərində quruldu və şagirdlər sərbəst olaraq proqram qurma yolları ilə tanış oldular. Sadalanan bütün mərhələlərin müsbət nəticəsi şagirdlər arasında mükəmməl proqramçıların yetişməsinə və onların ixtisas seçmə prosesində daha düzgün qərarlar vermələrinə çox yardımçı oldu. Layihənin ən böyük uğurlarından biri kimi şagirdlərimizdən Şahin Məmmədov və Həmzət Hudulovun Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən "SAF" festivalına qoşularaq II yerə layiq görülmələri, eyni zamanda Məryəm Şəkiliyeva, Şahin Məmmədov və Həmzət Hudulovun Respublika fənn olimpiadasında informatika fənni üzrə II tura, həmçinin ölkəmizdə ilk dəfə keçirilən "Teknofest festivalı"na vəsiqə qazanmaları layihənin hədəfləri və uğurlarının bariz nümunəsidir. Artıq layihə üzvləri Təhsil Nazirliyinin dəstəyi ilə keçiriləcək "Sabahın alimləri" müsabiqəsinə hazırlaşır.

**Oruc MUSTAFAYEV**



**A**zərbaycanın bütün əraziləri kimi Füzuli rayonu da özünəməxsus gözəlliyi ilə fərqlənir. O, Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. Rayonun ərazisindən Quruçay, Göndələnçay, Qozluçay Çərəkən çayları keçir. Əhali burada 1827-ci ildə məskunlaşmağa başlamış və ilk olaraq buranı Qarabulaq adlandırmışdı. Ərazi 1930-cu ildə Qaryagin adı ilə rayon statusu almışdı. 1959-cu ildə Azərbaycanın görkəmli şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayonun adı dəyişdirilərək Füzuli rayonu adlandırılmışdır. 1988-ci ildən Ermənistan tərəfindən təcavüz edilməyə başlamışdı. Rayon əhalisi özünümüdafiə qüvvələri yaradaraq, təcavüzkara qarşı mərdliklə vuruşsa da 23 avqust 1993-cü ildə Füzuli rayonu işğal olundu. 17 oktyabr 2020-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələr tərəfindən işğaldan azad olundu. Rayonun məşhur kəndlərindən biri Dədəli adlanır. Bu oba tarixən Cavanşir-Dizaq mahalına bağlıdı. Yaşayış məntəqəsi dədəli nəslinə mənsub ailələr tərəfindən salındığı üçün belə adlandırılır. Əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı-əkinçilik, maldarlıq və heyvandarlıq olub. Kənd əhalisi sakit təbiəti, zəhmətkeşliyi, torpağa bağlılığı ilə fərqlənib.

# Müəllim və alim ömrünün səhifələri

Dədəli kəndinin çoxlu sayda tanınan simaları var. Onlardan biri də pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim Sərdar Quliyev olmuşdur. Bu ilin may ayının sonlarında, 90 yaşının tamam olmasına bir aydan bir neçə gün çox qalmış Sərdar Quliyev torpaq nisgili ilə dünyasını dəyişdi. Bu gün onu tanıyanların hamısı ona Allahdan rəhmət diləyir və onu itirdikləri üçün heyfslənirlər. İndi o haqq dünyasındadır. Mən əziz xatirəsinə hörmət əlaməti olaraq onun ömrünün səhifələri haqqında həyat yoldaşı Mehbarə xanımdan (Mehbarə xanım BDU-nun Pedaqogika kafedrasının dosentidir), qızı İlahə xanımdan, kürəkəni Nazim bəydən, qohumlarından, dostlarından, həmkarlarından eşitdiklərim, o cümlədən gördüklərim və bildiklərimdən istifadə edərək professor Sərdar Quliyevin həyat salnaməsini bir daha vərəqləməyi özümə borc bildim.

### Uşaqlıq həyatının arzuları

Sərdar Quliyev 1932-ci ildə Füzuli rayonunun Dədəli kəndində anadan olmuşdu. Kənddə yaşayan bütün uşaqlar kimi erkən yaşlarından əmək fəaliyyətinə cəlb olunmuşdu. Dərrakəli, diribaş və zəhmətkeş idi, tapşırılan işləri həmişə yarıdırdı, buna görə də ona daha çox iş tapşırırdılar. Atası Musa kişi Nəriman bəyin oğlu idi. Sovet hakimiyyəti qurulandan sonra xeyli əziyyət çəkmişdilər. Babasının bütün mal-dövləti müsadirə olunmuşdu. Musa kişi təbiətən sakit, hamıya yaxşılıq edən, zəhmətkeş bir adam idi. Kolxozda mühasib işləyirdi.

1939-cu ildə yeddi yaşı tamam olan balaca Sərdarın məktəb həyatı başladı. Dərrakəsi, fərasəti və zəhmətkeşliyi burada da onu digər uşaqlardan fərqləndirdi. O, məktəbə müqəddəs ocaq kimi baxırdı, buranı dünyanın sirlərini öyrənmək imkanı verən məbədgah kimi dəyərləndirirdi. Elə ilk gündən sinfin, bir müddət sonra isə məktəbin qabaqcıl şagirdinə çevrildi. Bütün fənlərdən yüksək qiymətlər alırdı. Amma tarix dərsi onu özünə daha çox cəlb etmişdi. Müəllimi də vətənpərvər bir insan idi, Azərbaycan tarixini elə vətənpərvərlik hissi ilə tədris edirdi. Balaca Sərdar Azərbaycan tarixini öyrəndikcə, böyük şairimiz Səməd Vurğunun Azərbaycan şeirindəki “Nələr çəkmiş başın sənin” misralarının fəlsəfəsini başa düşür və bu tarixi daha dərindən öyrənmək üçün tarixçi olmaq arzusu ilə yaşamağa başlayırdı. Bu, həyatda onun ilk arzusu idi.

Kənd məktəbi yeddiillik idi. O, təhsilini ya başqa kənddə, ya da Füzuli şəhərində fəaliyyət göstərən pedaqoji texnikumunda davam etdirməli idi. O, texnikumu seçdi. Fikirləşdi ki, texnikum onun həm arzularına daha tez qovuşmasına, həm də daha dərin bilik almasına imkan verər.

1949-cu ildə qəbul imtahanlarından heç bir çətinlik çəkmədən yüksək qiymətlər alan gənc Sərdar təhsilini texnikumda davam etdirməyə başladı. Texnikum mühiti məktəb mühitindən fərqlənirdi. Məktəbdə müəllimlərinin çoxu qohum-əqraba və qonşuları idi, hamı onu tanıyırdı, burada isə heç kim onu tanımırdı. Texnikumun qaydaları daha sərt idi. Bunları başa düşən gənc Sərdar səylə çalışır, bütün çətinlikləri asanlıqla dəf edirdi. Hətta texnikumun ictimai işlərində də canla-başla fəallıq edirdi. Günlərin, ayların və illərin bir-birini sürətlə əvəz etməsi hiss olunmadan onu maraqlı texnikum həyatının sonuna gətirib çıxardı.

Texnikum onun həyatında böyük rol oynadı. Bu müddət ərzində o, yetkin şəxsiyyətə çevrilmişdi. Onun dünyagörüşü formalaşmış, həyata baxışları daha mütərəqqi olmuşdu. Əgər texnikuma qəbul olanda alacağı təhsillə kifayətlənmək istəyirdisə, indi onda yeni arzu yaranmışdı, bu arzunu reallaşdırmaq üçün, ilk növbədə, ali məktəbə qəbul olmalı idi.

O, Azərbaycan Pedaqoji İnstitutunun (indiki-ADPU) tarix fakültəsini seçdi. Valideynlərinə və kənddə heç kimə demədən, texnikumda təhsil alarkən ona gündəlik xərclik üçün verilən vəsaitə qənaət edərək yığdığı pul ilə Bakıya gəldi. İmtahanlardan qorxmurdu, amma ədalətsizlikdən qorxurdu. “Qəbul olmasam kənddə camaat nə düşünər?” fikri ilə Bakıya gəlmişdi. Onun biliyi yüksək qiymətləndirildi və 1953-cü ildə tarix ixtisası üzrə ali məktəbə qəbul oldu və kəndə alnıaçıq döndü. El adəti üzrə həmin gün Musa kişinin həyətində ziyafət təşkil olundu və kənd əhalisi gənc Sərdarın uğurunu qeyd etdi və ona gələcəkdə daha böyük uğurlar üçün xeyir-dua verdi.

### Həyat yolunu işıqlandıran peşə seçimi

Pedaqoji ali məktəb, təbii ki, tamam başqa mühit idi. Bu təhsil ocağında ölkəmizin görkəmli alimləri dərs deyirdilər. Onların tələbləri texnikum müəllimlərinin tələblərindən daha çətin, daha mürəkkəb idi. Gənc Sərdar bu çətinliklərin olacağını əvvəldən bilirdi, onları dəf etməyə hazır idi, ona görə də bu mühitə asanlıqla uyğunlaşa bildi və qısa zaman kəsiyində öz zəhmətkeşliyi, zəkası və tərbiyəsi ilə müəllimlərin sevimli tələbəsinə çevrildi. Həm tarixi, həm də onu necə tədris etməyin yollarını öyrənirdi. İstər mühazirə, istərsə də seminar məşğələlərində ən fəal tələbələrdən biri o idi.

Gənc Sərdar ali məktəbə tarix mütəxəssisi olmaq üçün gəlmişdi. Bu ixtisası özü seçmişdi və seçdiyi bu ixtisası sevirdi. Amma ali məktəbdə tarix fənləri ilə yanaşı həm təhsilin tarixi, həm də pedaqogika fənnini tədris edirdilər. Pedaqogika və təhsilin tarixi fənlərini öyrəndikcə onun arzusu haçalanırdı. Seçim qarşısında qalmışdı, bilmirdi tarixçi olsun, yoxsa tarix müəllimi.

Tədris müddətində nəzəri dərslərlə yanaşı, tələbələr həm də məktəbdə pedaqoji təcrübəyə də gedirdilər. Onlar üçüncü kursda oxuyarkən passiv pedaqoji təcrübədə iştirak etməli idilər. Təcrübənin əsas məqsədi tələbələrin məktəbin fənn müəllimlərinin dərsini müşahidə etmək və onların metodikasını öyrənmək idi. Bir neçə həftə dərsləri müşahidə etmişdilər ki, bir gün fənn müəllimi nə fikirləşdisə, gənc Sərdara “hazırlaş, sabah dərsi sən keç” dedi. Bu təklifi rədd etmək olmazdı, amma bu təklifi tərəddüdlə qarşıladı. Onun tərəddüdünü görən müəllim “Sənin istedadın və hazırlığın imkan verəcək ki, yaxşı dərs deyəsən” dedi. Sonra ona sabahkı dərsin mövzusunu dedi və zəruri məsləhətlər verdi.

Sabahısı gün şagirdlərin Sərdar müəllimə necə heyrət və maraqla qulaq asmalarını müşahidə edən fənn müəllimi dərs bitdikdən sonra sevinc hissi ilə ona “Sən qabaqcıl müəllim olacaqsan. Bugünkü dərsin yüksək səviyyədə keçdi” dedi və Sərdarın dərsini təhlil etdi. Tələbəlikdən müəllimliyə keçid gənc Sərdarın həyatında həmin gün baş verdi və o tarix müəllimi olmaq qərarına gəldi. Məktəb müəllimi ona ixtisas seçimini dəqiqləşdirmək imkanı vermişdi və müəllimlik onun həyat yoluna çevrildi.

### Müəllimlikdən alimliyə gedən yol

Elə bu həvəslə ali məktəbi bitirən kimi Naxçıvan ikiillik Pedaqoji İnstitutunda müəllim kimi fəaliyyətə başladı. Əmək fəaliyyətini sonra Füzuli rayonu Yuxarı Seyid Əhmədli kənd orta məktəbində davam etdirdi. Onun dediyi dərs digər müəllimlərin dərsindən fərqlənirdi. Bunu görən rayon təhsil şöbəsinin rəhbərliyi onu qabaqcıl müəllim kimi Dədəlikənd yeddiillik məktəbinə direktor təyin etdi. Məktəb direktoru kimi də fərqləndi, rəhbərlik etdiyi məktəb yüksək nəticələr əldə etdi. Bu, ona Göyçay Rayon Xalq Maarif Şöbəsində metodist, müfəttiş vəzifələrinə təyinat almasına imkan verdi. Bir xeyli sonra isə o, 4 nömrəli tam orta məktəbdə direktor vəzifəsinə təyin olundu.

Məktəblərdə işlədiyi müddətdə o yeniliklər edir, eksperimental dərslər deyirdi. Məktəb müəllimlərini öz dərslərinə dəvət edir, təcrübəsini onlarla bölüşür, digər müəllimlərin dərslərində iştirak edir, onların da təcrübəsini öyrənməyə çalışırdı. Həyata keçirdiyi yeniliklər onda təhsilini davam etdirməyə stimul yaradırdı və o, yenidən Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasında (indiki doktorantura) təhsilini davam etdirmək qərarına gəldi. Görkəmli alim professor Əhməd Seyidovun rəhbərliyi ilə “Şagirdlərdə düzlük və doğruçuluq tərbiyəsi” (V-VIII siniflər) mövzusunda dissertasiya işi üzərində tədqiqat aparmağa başladı. Gərgin keçən günlər 1968-ci ildə öz bəhrəsini verdi və o, böyük müvəffəqiyyətlə dissertasiya işini müdafiə etdi. Müdafiənin uğurlu olması və onun yetkin alim kimi formalaşdığını görən ali məktəb rəhbərləri ona öz fəaliyyətini Pedaqogika kafedrasında davam etdirməyi təklif etdilər. Bu təklif onun həyat yolunu daha da zənginləşdirdi. İndi o müəllim hazırlayan ali məktəbdə, nəhəng alimlərlə bir yerdə işləyəcəkdi. Bu böyük etimadı doğrultmaq lazım idi. Beləliklə, gənc Sərdar müəllim həm də alimlik həyatına qədəm qoydu.

İndi Sərdar müəllim auditoriyaya daxil olur, böyük şövqlə mühazirə və seminar məşğələləri aparırdı. Onu həmişə tələbələr arasında görmək olardı. O, pedaqogika fənnini tədris edirdi. Baza təhsili tarix olduğu üçün fürsət tapan kimi Azərbaycan tarixindən, ölkəmizin, xalqımızın başına gələn faciələrdən danışır, yaxşı müəllim olmağı vətənpərvərlik müstəvisində dəyərləndirir, tələbələrin gələcəkdə həm yaxşı müəllim olmasına, həm də vətənpərvər bir vətəndaş kimi yetişməsinə çalışırdı.

Bir müddət keçdikdən sonra Sərdar Quliyev artıq Pedaqoji İnstitutun kollektivi tərəfindən nümunəvi müəllim kimi dəyərləndirilirdi. İntellekti, mənəvi dəyərləri və zəhmətkeşliyi onun öz fəaliyyəti ilə fərqlənməsinə imkan verirdi. Yorulmaq bilmədən işləyirdi. Daima mütaliə edir, elmi yeniliklərlə tanış olur, məqalələr, kitablar, dərsliklər yazır, dediyi dərslərin həm metodiki, həm də elmi məzmununun yüksək olmasına çalışır, öyrəndiyi yenilikləri dərslərinə tətbiq edir. Dərs deməklə yanaşı elmi fəaliyyətini davam etdirir, elmlər doktoru proqramı üzrə “Şagirdlərin mənəvi tərbiyəsində ailə, məktəb, ictimaiyyət və əmək kollektivlərinin birgə fəaliyyətinin nəzəri əsasları” mövzusu üzərində tədqiqatlar aparırdı. Faktiki olaraq onun praktik materialları var idi, amma Sərdar Quliyev tədqatlarının daha etibarlı olması üçün yenə məktəblərə gedir, eksperimentlər keçirir, məqalələr, kitablar yazır, elmi-praktik konfranslarda çıxışlar edirdi. Nəhayət, uzunmüddətli tədqiqatların nəticəsində 1988-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə etdi.

Onun doktorluq dissertasiyası olduqca aktual problemə həsr olunmuşdu. Dissertasiya işinin elmi yeniliyi ondan ibarət idi ki, o yeni nəslin təbiyəsini cəmiyyət sferasında qiymətləndirir, cəmiyyətin inkişafında onların rolunun mühüm olduğunu göstərir və bu istiqamətdə tərbiyəyə qlobal hadisə kimi yanaşaraq, onu ailənin, məktəbin, ictimaiyyətin və əmək kollektivlərinin birgə işi kimi qiymətləndirir, bu dörd tərbiyə institutunun əlbir işinin istiqamətlərini, forma və yollarını açıqlayırdı. Tədqiqatın aktuallığı bu gün də öz əhəmiyyətini itirməmişdi. Zaman dəyişsə də yeni nəslin tərbiyəsində bu yanaşma yüksək qiymətləndirilir.

Professor Sərdar Quliyev bu illər ərzində öz fəaliyyəti ilə pedaqoji universitetin inzibati strukturunda mühüm vəzifələrdə - Axşam və qiyabi şöbələr üzrə prorektor, Azərbaycan Pedaqoji İnstitutunun Partiya Komitəsinin katibi, İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri vəzifələrində çalışdı. Onu tanıyanlar bilirlər ki, bu vəzifələrin hər birində o, Pedaqoji Universitetə öz töhfəsini vermiş, fəaliyyətini həmin vəzifələrin tələblərinə uyğun qura bilmişdi.

Elmi işlər onun fəaliyyətinin ana xəttini təşkil etmişdi. Professor Sərdar Quliyevin 25 kitabı, dərsliyi, dərs vəsaiti işıq üzü görmüşdü. Bununla yanaşı 200-dən artıq elmi məqaləsi ilə müəllimlərin pedaqoji fəaliyyətinə işıq sala bilmişdi.

Professor Sərdar Quliyevin elmi və pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdi. O, Azərbaycan Respublikasının “Qabaqcıl maarif xadimi”, “Qabaqcıl təhsil işçisi” döş nişanları ilə təltif olunmuş, 2011-ci ildə isə “Əməkdar müəllim” fəxri adına layiq görülmüşdü.

### Ömrün nisgilli sonluğu - həyata keçməyən arzu

Ömrünün son illərində iki dəfə əməliyyat olundu. Bu əməliyyatlar nəticəsində ayaqlarında müxtəlif problemlər yaranmışdı. Günlərini ailəsinin, qohum-əqrabanın əhatəsində evdə keçirirdi. Tez-tez dostları da onu ziyarət edirdi. Yeni ədəbiyyatı mütaliə edir, məqalələr yazırdı. Amma heç nə onu ovundura bilmirdi. Bütün ömrü boyu işləmişdi, indi bir tərəfdən işləmək imkanlarının məhdud olması, digər tərəfdən anadan olduğu və böyüdüyü Füzuli rayonunun işğalda olması onu darıxdırırdı.

17 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz Füzuli rayonunu işğaldan azad etdi. Sərdar müəllim 1988-ci ildən bu günü gözləyirdi. Lakin o, doğma torpaqları ziyarət edə bilmədi, ömrü vəfa etdi, sağlamlığı vəfa etmədi. Torpaqlarını ziyarət etmək onun sonuncu arzusu idi. Bu arzu reallaşmadı, haqq dünyasına qovuşdu. Əvəzində bu gün onun ruhu şaddır, işğaldan azad edilmiş boya-başa çatdığı torpaqlarda nəhəng quruculuq işləri həyata keçirilir. Həyata keçirilən layihələr Füzuli rayonunun yaxın gələcəkdə Azərbaycanın ən gözəl rayonlarından birinə çevriləcəyini sübut edir.

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru*

# Pedaqoji prosesdə situasiyalar, metodlar, öyüd və nəsihətlər




“Müəllim” nəşriyyatı tərəfindən professor Rüfət Hüseynzadə, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Vaqif Mahmudov, Nəzirə Hüseynova, Nigar Mahmudova, Gülçin Hüseynova, Ceyhun Ağabəyov və Ziya Aslanovun müəllifliyi ilə “Pedaqoji prosesdə situasiyalar, metodlar, öyüd və nəsihətlərdən istifadə” adlı altı bölmədən ibarət pedaqoji təmayüllü tələbələr, müəllim və tərbiyəçilər, praktik psixoloqlar üçün nəzərdə tutulmuş 530 səhifəlik yeni metodik vəsait nəşr olunmuşdur (Bakı: Müəllim, 2022).

Bakı Dövlət Universitetinin “Sosial elmlər və psixologiya” fakültəsinin 27 aprel 2022-ci il tarixli Elmi Şura iclasının qərarı ilə nəşr edilən bu dəyərli vəsaitin elmi redaktoru, professor Ləzifə Qasımova, rəyçiləri professorlar Akif Abbasov, Məcid İsmixanov, Kərim Məmmədovdur.

Metodik vəsaitdə görkəmli alimlərin, klassik pedaqoqların təlim və tərbiyə haqqında fikirləri, xüsusilə onların gənc nəslə öyüd və nəsihətləri geniş yer almaqla bərabər, məktəb həyatından, pedaqoji prosesdən və müxtəlif pedaqoji təcrübələrdən qaynaqlanan pedaqoji situasiyalı məsələlər, problemlər, münaqişələr və belə situasiyalarda, məqamlarda müəllimin mümkün adekvat cavabları, fəaliyyəti, davranışı ətraflı şəkildə öz əksini tapmışdır.

Bunula bərabər, ailədə baş verən pedaqoji problemlər, yanlış tərbiyə üsulları, uşaqlara yönələn yanlış münasibətlər, təsirlər, yanlış valideyn-övlad münasibətləri verilmişdir ki, bunların da böyük bir qismi “Yanlış tərbiyə” adlı hekayələrdə əks etdirilmişdir.

Bu vəsiatdə həmçinin pedaqoji tədqiqat xarakterli düşündürücü pedaqoji-metodik suallar və onların izahı, 80-dən çox fəal və interaktiv təlim metodlarının təsnifatı, şərhi və praktik tətbiqi haqqında geniş məlumat verilmişdir.

Vəsaitdə həmçinin məktəblərimizdə çalışan praktik psixoloqların vəzifələri, onların məktəbdə pedaqoji-psixoloji fəaliyyəti haqqında, müəllim-şagird münsibətlərinin optimal yolları barəsində dəyərli məsləhət və faydalı metodik istiqamətlər verilmişdir.

Metodik vəsaitdə verilən praktik pedaqoji çalışmalar, tapşırıqlar, pedaqoji testlər, pedaqoji məsələlər pedaqogika elminin nəzəri və praktik məsələlərinin möhkəmləndirilməsinə xidmət edir. Vəsait pedaqogika elminin müxtəlif praktik sahələrini, bölmələrini əhatə edir ki, bütün bunlar da praktik pedaqogikanın, tətbiqi pedaqogikanın öyrənilməsini daha da asanlaşdırır.

Metodik vəsait müəllim və tələbələri praktik pedaqoji və psixoloji biliklərlə silahlandırır, pedaqoji biliklərin mənimsənilməsi prosesini xeyli dərəcədə asanlaşdırır və daha səmərəli, daha keyfiyyətli edir.

Kitabdan müəllimlər, məktəb psixoloqları, şagirdlər, valideynlər, pedaqoji ali və orta ixtisas məktəblərinin tələbələri, magistr və doktorantlar geniş şəkildə istifadə edib faydalana bilərlər.

# Lahor Dövlət Kollec Universitetinin alimləri Nizami muzeyində

"Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri" beynəlxalq konfransı çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın Lahor Dövlət Kollec Universitetinin bir qrup alimi Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib. Ziyarətçilər sırasında Lahor Dövlət Kollec Universitetinin əməkdaşları, doktorlar- Faizə Bəşər, Ruhi Zahid, Əzmət Rübab, Maria Amin, Mahnur, Hayyad Niazi, Babar Nəsim Asi yer alıblar.

Ölkəmizdə və Azərbaycan Milli Elmlər Akademiyasında ilk dəfə olan Lahor Dövlət Kollec Universitetinin nümayəndə heyəti Nizami Muzeyinin milli ədəbiyyatı yaşadan



ekspozisiyası ilə tanış olub, Azərbaycan ədəbiyyatı ilə bağlı verilən məlumatları həvəslə dinləyib. Buradakı qonaqpərvərlikdən məmnun qalan qonaqlar rəngarəng eksponatlarla zəngin muzey zallarını böyük heyranlıqla seyr edib, ədəbiyyata dair suallar verərək, yazıçı və şairlərimizin bədii irsi ilə yaxından maraqlanıblar.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4890 **Sifariş** 2034

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Ağdaş rayon** Ərəb kənd tam orta məktəbi 12.07.2021-ci ildə bitirmiş Ağayev Aqil İlham oğluna verilmiş E-398208 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədova Aytac Vidadi qızına verilmiş A-238637 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 26 nömrəli fizika-riyaziyyat və informatika təmayüllü məktəb-liseyi 2015-ci ildə bitirmiş Alıyev Emin Vahid oğluna verilmiş A-436206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Cəfərov Sənan Ərəstun oğluna verilmiş B-509252 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2007-ci ildə Əhmədova Aysu Məhərrəm qızına verilmiş BB-II-047443 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu** 1998-ci ildə bitirmiş Məhərrəmov Arif Məmməd oğluna 2000-ci ildə verilmiş A-039311 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Güneş Ayşe Aleynaya verilmiş TN-012390 nömrəli hazırlıq kursunu bitirmə haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1997-ci ildə Rüstəmov Mehman Əşrəf oğluna verilmiş A-004292 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Məktəbi** tərəfindən 2003-cü ildə Səlimova Xəyalə Rais qızına verilmiş AB-II-093695 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Mənəfova Xatirə Şahmərdan qızına verilmiş A-185813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu** tərəfindən 1978-ci ildə Ağayev Ədalət Ələmqulu oğluna verilmiş Г-I-034506 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 50 nömrəli tam orta məktəbin IX sinfini 25.06.2021-ci ildə bitirmiş Tahirova Mənzər Salman qızına verilmiş C-454189 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı Tibb Kolleci) tərəfindən 2007-ci ildə İsfəndiyarova Zeynab Əli qızına verilmiş BB-II-051464 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli təbiət, humanitar təmayüllü məktəb-liseyi 2016-cı ildə bitirmiş Nəzərov Kamran Mahir oğluna verilmiş A-557504 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar Peşə Liseyi** tərəfindən 1999-cu ildə Ağayeva Ramilə Saday qızına verilmiş 037586 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Qumlaq kənd tam orta məktəbin VIII sinfini 1997-ci ildə bitirmiş Təhməzova (Lətifova) Zeynəb Qüdrət qızına verilmiş B-123395 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 196 nömrəli tam orta məktəbi 01.07.2021-ci ildə bitirmiş Atakişiyev Ağasoltan Elman oğluna verilmiş E-369190 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** Hacıbaba Əliyev adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş İskəndərov Seydi Vüqar oğluna verilmiş C-223752 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Sığdaş kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Hüseynova Gülər Ramiz qızına verilmiş A-042376 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2008-ci ildə Qəmbərov Rəşid İsgəndər oğluna verilmiş B-093219 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2009-cu ildə Məhərrəmova Nigar Nurməmməd qızına verilmiş BB-I-013191 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2010-cu ildə Məhərrəmova Nigar Nurməmməd qızına verilmiş 0487 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Quba Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2015-ci ildə Azayev Nəsib Osbat oğluna verilmiş AA-062557 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 25.06.2004-cü ildə İmaməliyev (İmaməli) Ərşad Mahir oğluna verilmiş AB-000132 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 05.06.2020-ci ildə bitirmiş Həsənov Asiman Cəlaləddin oğluna verilmiş E-264078 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 13.06.2007-ci ildə bitirmiş Ağayeva Çinarə Naib qızına verilmiş B-367471 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta məktəbi 1987-ci ildə bitirmiş Hüseynova (Abidinova) Maygül Dəmir qızına verilmiş AK-317327 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 2006-cı ildə Əliyev Cəlal Asif oğluna verilmiş BB-020725 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mirzəyev Məftun Rasim oğluna verilmiş A-230470 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Bədəlov Rövşən Rafiq oğluna verilmiş A-052326 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2010-cu ildə Əliyev Şamo Əliyar oğluna verilmiş B-178679 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2018-ci ildə Abbasov Kənan Rauf oğluna verilmiş C-018303 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xırmandalı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Dadaşov Ələddin Fərman oğluna verilmiş A-1324520 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli İdman Liseyini P.H.Ş. (277 nömrəli idman təmayüllü tam orta məktəb) 09.07.2018-ci ildə bitirmiş Əliyev Ramazan Fəqan oğluna verilmiş E-143775 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 01.04.2015-ci ildə Fərzəliyev Əli Elman oğluna verilmiş A-060271 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2003-cü ildə Maqsudova Samirə Yusif qızına verilmiş A-140196 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.



# “Texnologiya müəllimləri əvəz etməyəcək”

“Texnologiyadan istifadə müəllimlərin imkanlarını çox genişləndirə bilər. Amma hətta ən yaxşı texnologiya müəllimləri əvəz edə bilməz. Çünki təhsildə sosial münasibətlər lazımdır”. Bu barədə OECD-nin Təhsil və səriştələr departamentinin direktoru Andreas Şleyxer Ankara təhsil platforması tərəfindən təşkil edilən, 400-dən çox türkiyəli müəllimin iştirak etdiyi videokonfransda bildirib.

## *Andreas Şleyxer:* “Çünki təhsildə sosial münasibətlər lazımdır”

### Biz gələcəyi yenidən qururuq

Andreas Şleyxer çıxışında bildirib ki, pandemiya ilə texnologiyanın təhsili dəyişməyə başladığını gördük. “Qiymətləndirmə və imtahanlarda böyük dəyişikliklər görürük. İndi simulyasiya, maşın alqoritmləri çox faydalıdır. 300 il əvvəl qiymətləndirmələrdə hansı nəticələr olmuşdur? İnsanlar öyrənmişlər, indi deyirlər ki, göstər nə öyrəndiyini. Bunun texnologiyalar əsasında həyata keçirilməsi bir çox üstünlüklərə gətirib çıxardı.

Pandemiya ilə bizim ən ənənəvi imtahan sistemlərimiz dağıdılıb. Çünki rəqəmsal texnologiya dövrünə uyğun gəlmirdi. Texnologiya bizə bunu yenidən, amma başqa formada etməyə imkan verir. Müəllimlər şagirdlərin necə fərqli bir şəkildə öyrəndiyini görürlər. Harada onlara cansıxıcıdır, harada çətinlikləri var, onu görürlər. Dərsi onlara necə daha yaxşı təşkil edə bilərlər, onu görürlər. Biz gələcəyi yenidən qururuq”.

### Məktəblər unikal həllər hazırlamalıdır

OECD rəsmisi əlavə edib ki, ötən semestrdə PISA araşdırmasına baxdığımızda, təlimdə nailiyyətlərlə bağlı fərqlər ortaya çıxdı. Texnologiyadan necə istifadə etdiyiniz vacibdir. Texnologiya müəllimləri gücləndirə bilər.

A.Şleyxer hesab edir ki, məktəblər unikal həllər hazırlamalıdır. Şagirdlərin və müəllimlərin daha yaxşı olmaları üçün biz çox dağınıq bir sistemlə qarşı-qarşıyayıq. Ev tapşırıqları çoxdur, məsələn, burada texnologiyaya deyil, pedaqogikaya diqqət yetirilməlidir. Həllin işləməsi üçün müəllimlər dizaynın mərkəzində olmalıdırlar. Müəllimləri prosesə cəlb etməsəniz, qərarların həyata keçiriləcəyini gözləyə bilməzsiniz. Çünki öyrənmə dediyimiz proses əməliyyat deyil. Müəllimlər texnologiyadan istifadəni artırmalıdırlar. Təhsildə funksional struktur yaratmalıyıq. Tədris mühitlərini qarışdırmaqla intellektual sistemlər qurulmalıdır və bu, hamı üçün işləməlidir. Bu sistem hər kəsin iştirakı ilə hazırlanmalıdır. Texnologiya burada daha fərdi öyrənmə prosesini inkişaf etdirə bilər. İnnovasiya üçün əlverişli bir ekosistem yaradıla bilər. Şəffaf və neytral”.

### Rəqəmsal mühitdə doğulsalar da rəqəmsal sakinlər deyil

A.Şleyxer qeyd edib ki, rəqəmsal vətəndaşın, 15 yaşlı uşağın bir çox texnoloji qurğuları var. “Lakin onlara sahib olmaq deyil, bu informasiya axınında düzgün istiqamət tapmaq imkanı vacibdir. Məsələn, Çində bu auditoriyanın 50 faizi rəqəmsal dünyada həqiqəti tapa bilər. Türkiyədə isə göstərici aşağıdır. Onların əksəriyyəti rəqəmsal doğulsa da, rəqəmsal sakin ola bilməz. Əvvəllər kitablarda oxuduqlarımız həqiqət idi, indi internetdə bir çox suallara cavab tapırıq, amma nəyin doğru, nəyin yanlış olduğunu bilmirik. Buna görə həqiqəti tapmaq vacibdir. Biz bunu ikinci rəqəmsal boşluq adlandıra bilərik. Texnologiyalarla birlikdə təlimdə düzgün iştirak etmək, məzmun yaratmaq vacibdir. Təhsilalanlara səslərinin eşidilməsi imkanını vermək çox vacibdir. Onları dinləmək, təhsilin dizaynında onların səsinə qulaq asmaq, müəllimlərə dəstək olmaq, məktəbləri hər kəsin öyrəndiyi bir sistemə çevirmək və digər sektorlarla əməkdaşlıq etmək vacibdir”.

### Sosial rifah akademik uğur qədər vacibdir

Sosial inteqrasiyanın koronavirusun təsirinə məruz qaldığını deyən A.Şleyxer əlavə edib ki, uşaqlar daha az kövrək idilər. “Məktəblərin bağlanması uşaqlara ciddi təsir göstərib. Təhsil sistemində bərabərsizlik daha çox nəzərə çarpır. Təhsilalanların sosial rifafı, sağlamlıq vəziyyəti onların akademik uğurları qədər çox vacibdir. Söhbət imtahan həyəcanından getmir, hər zaman bundan danışırıq, amma onların stresə davamlılığı, nikbinliyi və enerjisi vacibdir. Onları necə yaradacağımızı soruşmaq lazımdır. Əslində biz əsasən, müəllimlərlə şagirdlər arasındakı münasibətlərlə məşğul olmalıyıq “, - deyə A.Şleyxer əlavə edib.

### Məktəblər insanları möhkəmləndirsin

Harvard Universitetinin professoru Fernando Reymers isə qlobal vətəndaşlıq təhsili məsələləri üzrə çıxışında deyib: “Çox vacib məsələ odur ki, məktəblər insanları möhkəmləndirsin və bu insanlar dünyaya təsir etsinlər. 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qərar qəbul edilmişdir ki, hər bir insanın təhsil hüququ vardır. Bu qərar insanları dəyişdirdi. Dövlət müəssisələri tərəfindən hamı üçün təhsil təklif olunurdu. Bu, bir inqilab idi. Bu, 80 ildə, daha qısa müddətdə təhsilin gəldiyi nöqtə ən təsirli məqamdır. Bu inqilabın hədəfi maarifləndirmə məqsədlərinə nail olmaq və dünya haqqında danışmaq bacarığıdır. Burada “tərəqqi mümkündür fenomenini öyrətmək” və “kosmopolit nə deməkdir” ifadəsini anlada bilmək lazım gəlir. Amma əvvəlcə insanların özlərini başa düşmələri vacibdir. Müxtəlif təhsil sistemlərindən çıxan və səsini Gretta (ekologiya fəalı) kimi yüksəldən bir çox insan var. Məktəblərin təşkilinin məqsədi şagirdlərin düşüncələrini ifadə edə bilmək və öz hüquqlarına sahib olmalarını təmin etməkdir. Onları necə sürətləndirə bilərik, təhsil sistemlərində bu insanların sayını artırmaq üçün nə edə bilərik? Məktəbdə şagirdlərlə məktəbdənkənar da ünsiyyət qurmaq lazımdır ki, onlar çətinlikləri başa düşsünlər. Riyaziyyatda, elmdə və ya coğrafiyada onların öyrəndiklərini xarici dünyada tətbiq etmək, vəziyyəti dəyişə biləcəklərini anlamaq, gələcəklərini formalaşdırmaq mümkündür. Ümumiyyətlə, bunlar qlobal vətəndaşlıq təhsilinə dair dediklərimdir. Mən fərqli şeylərdən bəhs etmirəm”.

### Məktəb bannerləri dəyişməlidir

Qlobal təhsil üzrə məsləhətçi professor Qer Qratus isə deyib: “Pandemiyadan əvvəl baş vermiş bir çox problemlər pandemiya ilə birlikdə səhnəyə çıxdı. Soruşuram, biz kompensasiya kimi nələri bacaracağıq?. Konsepsiyanın bir tərəfi daim başqa nəticə gözləməklə eyni şeyləri edir. Pandemiya ilə əlaqədar uşaqların təcrübəsi artdı. Onlar məktəbdən kənarda təcrübə gördülər. Uşaqların öz hekayələrini yaza bilməsi üçün məktəbdə bir maket yaradılmalıdır ki, orada onlar öyrəndiklərini təcrübə edə bilsinlər. Onları öyrətməklə və yoxlamaqla heç nə əldə edə bilməyəcəyik. İndi biz məktəb divarlarında o qədər uğurluyuq ki, bu anda və ya etdiklərimizə bənzər bannerlər silinməlidir. Bunun əvəzinə məkanın dəyişməsi, zamanın dəyişməsi, düşüncələrin dəyişməsi və gələcəyin dəyişməsi ilə birlikdə ümidlər barədə yazmaq lazımdır”.

**Oruc MUSTAFAYEV**

* **Müəllimlər şagirdlərin necə fərqli bir şəkildə öyrəndiyini görürlər. Harada onlara cansıxıcıdır, harada çətinlikləri var, onu görürlər. Dərsi onlara necə daha yaxşı təşkil edə bilərlər, onu görürlər. Biz gələcəyi yenidən qururuq.**
* **Uşaqların öz hekayələrini yaza bilməsi üçün məktəbdə bir maket yaradılmalıdır ki, orada onlar öyrəndiklərini təcrübə edə bilsinlər.**
* **Məktəbləri hər kəsin öyrəndiyi bir sistemə çevirmək və digər sektorlarla əməkdaşlıq etmək vacibdir.**
* **Biz əsasən müəllimlərlə şagirdlər arasındakı münasibətlərlə məşğul olmalıyıq.**
* **Şagirdlərlə məktəbdən kənarda ünsiyyət qurmaq lazımdır ki, onlar çətinlikləri başa düşsünlər.**
* **Pandemiya ilə əlaqədar uşaqların təcrübəsi artdı. Onlar məktəbdən kənarda təcrübə gördülər.**
* **Təhsilalanların sosial rifafı, sağlamlıq vəziyyəti akademik uğurları qədər çox vacibdir.**
* **Pandemiya ilə texnologiyanın təhsili dəyişməyə başladığını gördük.**
* **Texnologiya müəllimləri gücləndirə bilər.**
* **Məktəblər unikal həllər hazırlamalıdır.**
* **Təhsildə funksional struktur yaratmalıyıq.**
* **Təhsilalanlara səslərinin eşidilməsi imkanını vermək çox vacibdir.**